# Naxçıvanda məktəb çöküb

## Hadisə zamanı 4 nəfər ölüb, 1 nəfər yaralanıb



**Naxçıvanın Babək rayonunun Nehrəm qəsəbəsində məktəb binasının çökməsi nəticəsində 4 nəfər ölüb, 1 nəfər yaralanıb.**

Bu barədə Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyindən məlumat verilib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Babək rayonunun Nehrəm qəsəbəsindəki 3 nömrəli tam orta məktəbdə 2022-ci il martın 1-dən etibarən yenidənqurma işləri həyata keçirilir: "2022 - ci il 31 mart tarxində Nehrəm qəsəbəsindəki 3 nömrəli tam orta məktəbdə tikinti işləri aparılarkən binanın bir divarının çökməsi nəticəsində 4 tikinti işçisi həlak olub, bir nəfər isə xəsarət alıb.

(səh.2)



## Qırğızıstan ilk dəfə "Bayraktar TB2"dən istifadə edib

**Qırğızıstan ilk dəfə Türkiyədən alınan "Bayraktar TB2" ilotsuz uçuş aparatından hərbi təlimlərdə istifadə edib.**

APA-nın Türkiyə müxbirinin verdiyi xəbərə görə, bu barədə "Anadolu Agentliyi" məlumat yayıb.

*Qeyd edək ki, sözügedən PUA-ları Qırğızıstan Türkiyədən 2021-ci ildə alıb.*


❒ № 55 (5577), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 1 aprel 2022-ci il (cümə)





# Şuşanı dünya bir daha tanıyacaq

## Şəhərin Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi böyük hadisədir

**Azərbaycanın dilbər guşəsi Şuşa milli mədəniyyətimizin beşiyi, dünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermiş şəxsiyyətlərimizin, bir çox məşhur sənətkarların, musiqiçi, memar, rəssam və ədiblərin vətənidir.**

Musiqi, poeziya beşiyi adlanan bu sehirli şəhərdə Azərbaycanın bir çox məşhur mədəniyyət xadimləri yaşayıb-yaradıb. Qarabağın baş tacı Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib. Bu haqda qərar TÜRKSOY-un Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında verilib.

(səh.3)



# Prezident İlham Əliyev Vladimir Putinə zəng edib

## Danışıqlar zamanı Qarabağ bölgəsindəki vəziyyət müzakirə olunub

**Martın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib.**

Bu barədə Prezidentin Mətbuat xidmətindən məlumat verilib.

Telefon danışığı əsnasında Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyət müzakirə olundu.

Söhbət zamanı 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli üçtərəfli bəyanatların bütün müddəalarının ardıcıl surətdə həyata keçirilməsinin vacibliyi vurğulandı.

# İstanbul görüşünün nəticələri müzakirə olunub

## Ərdoğan Ukrayna və Rusiya prezidentləri ilə telefonla danışıb



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya Prezidenti Vladimir Putin və Ukrayna Prezidenti Volodimir Zelenski ilə telefon danışığı aparıb.**

APA-nın Türkiyə müxbirinin verdiyi xəbərə görə, bu barədə "Anadolu Agentliyi" məlumat yayıb.

*Qeyd olunub ki, tərəflər iki ölkənin nümayəndə heyətlərinin İstanbulda baş tutan görüşünün nəticələrini müzakirə edib.*

# Savaş uzanır

## Rusiyanın mövqeyində dəyişiklik görünmür



## NATO Ukraynaya hərbi yardımını davam etdirəcək

**"Lavrovla Kulebanın görüşünə hazırlıq görülür". Bunu Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, Rusiya Xarici işlər naziri Sergey Lavrova ukraynalı həmkarı Dmitro Kulebanın görüşünə hazırlıq görülür. Nazir qeyd edib ki, XİN rəhbərlərinin görüşündən sonra prezidentlərin də bir araya gələcəyi ehtimal olunur.** Çavuşoğlu görüşlərin dəqiq tarixinin müəyyənləşmədiyini desə, bir-iki həftə ərzində baş tutacağını istisna etməyib. O, hər iki tərəfin bir-birinin ittiham etməsini vurğulayaraq hər iki tərəfdə döyüşən muzdluların olduğunu bildirib. Çavuşoğlu Vladimir Putinin Türkiyəyə səfərini gözlədiklərini, bunun tarixini rəsmi Moskvanın təyin edəcəyini söyləyib. O qeyd edib ki, Ukrayna neytral status və NATO-ya üzv olmamaqla bağlı tələblərlə razılaşır...

(səh.2)

# Bakının şərtləri ağırlaşa bilər

## Hadisələrin inkişafı Ermənistanı sürətli qərarlar qəbul etmək məcburiyyətində buraxır



**Ermənistana təqdim edilən 5 prinsip beynəlxalq hüququn normalarını əks etdirir.**

Bunu Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Raunu qəbul edərkən deyib. Dövlət başçısı vurğulayıb ki, bu prinsiplər qarşılıqlı olaraq ərazi bütövlüyünün və beynəlxalq sərhədlərin toxunulmazlığının tanınması, sərhədlərin delimitasiyasıdır:

"Bunun əsasında Qafqaza sülh gələcək. Biz bunu istəyirik. Cənubi Qafqazın üç ölkəsi arasında Cənubi Qafqazda fəal əməkdaşlıq üçün potensialın olduğunu görürük və hesab edirəm ki, bu, nəinki bu ölkələr üçün, daha geniş region üçün önəmli olacaq. Əlbəttə ki, bütün bu məsələləri çox ehtiyatla və vaxtında həll etmək lazımdır".

(səh.4)



# Şəkər tozu qıtlığı olmayacaq

## Kifayət qədər xammal ehtiyatı mövcuddur

**"Müxtəlif KİV tərəfindən yayımlanmış şəkər tozu qıtlığının yaranması barədə məlumatlara cavab bildirmək istəyirik ki, regionun ən böyük şəkər istehsal müəssisəsi olan İmişli Şəkər Zavodu tam gücü ilə fəaliyyətini davam etdirir".**

Bu barədə Axşam.az-a İmişli Şəkər Zavodundan bildirilib.

"Kifayət qədər xammal ehtiyatı mövcuddur və istehsal prosesi plan üzrə davam edir. Müvafiq olaraq satış nöqtələri də tələbata uyğun olaraq şəkərlə təmin edilir. Yayılan xəbərlərin heç bir əsasının olmadığını bildiririk və bütün media mənsublarını belə bir həssas məqamda ajiotaja səbəb olmamağa çağırırıq", - məlumatda qeyd olunub.

# Dünən cəmi 1 nəfər öldü

## 56 yeni yoluxma faktı qeydə alınıb, 24 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 56 yeni yoluxma faktı qeydə alınıb, 24 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 1 nəfər vəfat edib.

*Azərbaycanda indiyədək ümumilikdə 791 932 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 781 889 nəfər müalicə olunaraq sağalıb, 9 692 nəfər vəfat edib, aktiv xəstə sayı 351 nəfərdir.*

# Məhəllədə reyd keçirilib

## Bakıda dilənçilər polisdən "qorunmaq" üçün evlərinə kamera quraşdırıblar



**Bakının Sabunçu rayonu ərazisində dilənçilərin bir qisminin məskunlaşdığı məhəllədə reyd keçirilib.**

Reyd Daxili İşlər Nazirliyi (DİN) və Sabunçu Rayon Polis İdarəsinin (RPİ) əməkdaşları ilə birgə baş tutub. Reyd zamanı bir çox ailənin qeydiyyatda olmadığı aşkarlanıb. Məlum olub ki, dilənçilər polisdən "qorunmaq" üçün evlərinə təhlükəsizlik kamerası quraşdırıblar.

DİN-in Mətbuat Xidmətinin polis leytenantı Nurlan Əliyev "Report"a bildirib ki, avara və tüfeyli həyat tərzi yaşayan şəxslərə qarşı mütəmadi tədbirlər görülür:

"Bu kimi neqativ hallarla rastlaşdıqda, ərazi üzrə fəaliyyət göstərən polis əməkdaşları tərəfindən həmin şəxslərlə profilaktiki söhbətlər aparılır.

(səh.4)



# Artıq maskalardan istifadəyə gərək yoxdur

## Yoluxma sayı təbii şəkildə azalıb, kollektiv immunitet tam formalaşıb

(səh.4)

# Xocalıda rusların gözü qarşısında ermənilər silahlanır

## Professor: "Sakit şəkildə, zaman yetişdikcə işimizi görməliyik"



(səh.5)

# "Ermənistanda bizim təklifimizi məqbul hesab edirlər"

Prezident İlham Əliyev: “Mümkün olduğu qədər qısa müddətdə sülh sazişini imzalamalıyıq”



**”Ümid edirəm ki, Ermənistan baş naziri ilə görüş məhsuldar olacaq”. Bunu Prezident İlham Əliyev martın 31-də Polşanın Xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Rau ilə görüş zamanı deyib. Ölkə rəhbəri Avropa İttifaqı ilə əməkdaşlıq məsələlərində bizi dəstəklədiyinə görə Polşaya minnətdarlığını bildirib.**

Dövlət başçısının sözlərinə görə, bu proses indi sürətlə gedir və artıq Avropa İttifaqı tərəfindən elan edilib ki, Prezident Şarl Mişelin təşkilatçılığı ilə Ermənistanın baş nazirinin mənimlə yeni görüşü olacaq: ”Artıq bir neçə görüş olub və biz Azərbaycanla Ermənistan arasında sülhə doğru irəliləməliyik, mümkün olduğu qədər qısa müddətdə sülh sazişini imzalamalıyıq. Azərbaycan bizim baxışımıza uyğun olaraq bu razılaşmanın əsas prinsiplərini təqdim edib”.

*Prezident münaqişənin artıq öz həllini tapdığını vurğulayıb:* ”Azərbaycan bunu özü etdi və indi də Azərbaycanla Ermənistan arasında münasibətləri nizamlamaq vaxtıdır. Bizə Ermənistan rəsmiləri tərəfindən müəyyən mesajlar daxil olur. Bu yaxınlarda mənə verilən məlumata görə, bu mesajlardan biri də ondan ibarətdir ki, onlar bizim təklifimizi məqbul hesab edirlər. Bu, çox yaxşı xəbərdir və mən ümid edirəm ki, Brüsseldəki görüşdə bu məsələyə daha çox aydınlıq gətiriləcək”.

**Dövlət başçısı qeyd edib ki, Azərbaycanın təqdim etdiyi beş prinsip beynəlxalq hüququn normalarını, yaxşı beynəlxalq davranışı əks etdirir:** ”Necə deyərlər, biz burada velosiped ixtira etmirik. Bütün bu prinsiplər istənilən ölkələr arasında dövlətlərarası münasibətlərin təməl prinsipləridir. Qarşılıqlı olaraq ərazi bütövlüyünün və beynəlxalq sərhədlərin toxunulmazlığının tanınması, daha sonra sərhədlərin delimitasiyası - hesab edirəm ki, bunun əsasında Qafqaza sülh gələcəkdir. Biz bunu istəyirik. Biz Cənubi Qafqazın üç ölkəsi arasında Cənubi Qafqazda fəal əməkdaşlıq üçün potensialın olduğunu görürük və hesab edirəm ki, bu, nəinki bu ölkələr üçün, daha geniş region üçün önəmli olacaq. Əlbəttə ki, bütün bu məsələləri çox ehtiyatla və vaxtında həll etmək lazımdır. Çox şadam ki, bu və digər mühüm məsələləri sizinlə müzakirə etmək imkanımız var”.

**İsmayıl**



## Heç bir pozuntu yoxdur

Ərdoğan: ”Azərbaycan üçtərəfli bəyanatın müddəalarına tam əməl edir”

**Azərbaycan üçtərəfli bəyanatın müddəalarına tam əməl edir. Ona görə də Azərbaycan tərəfindən heç bir pozuntu yoxdur.**

Trend-in məlumatına görə bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Özbəkistandan səfərdən qayıdarkən jurnalistlərə açıqlamasında qeyd edib.

O bildirib ki, Azərbaycana qarşı hücum gerçəkləşib deyə müdafiə reaksiyası olub.

”Əsas odur ki, üçtərəfli bəyanatın müddəalarına uyğun olaraq erməni silahlı ünsürlərinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisindən tamamilə çıxarılması təmin edilsin”, - deyə R.T.Ərdoğan əlavə edib.

## ABŞ Rusiyaya qarşı sanksiyaları genişləndirib

**ABŞ Rusiyaya qarşı sanksiyaları genişləndirib.**

APA-nın “Reuters“ə istinadən xəbərinə görə, bu barədə ABŞ-ın Maliyyə Nazirliyinin saytında məlumat yerləşdirilib.

Qeyd olunub ki, ABŞ Rusiya ilə əlaqəli daha 13 şəxsə və 21 təşkilata sanksiyalar tətbiq edib.

Xatırladaq ki, Böyük Britaniya da bu gün Rusiyaya qarşı tətbiq etdiyi sanksiyaların siyahısına daha 14 şəxsi və təşkilatı əlavə etdiyini açıqlayıb. Sanksiya tətbiq edilənlərin informasiya və media sahəsinin nümayəndələrinin, xüsusilə də tanınmış aparıcıların və “Russia Today” telekanalının idarə heyətinin olduğu qeyd olunub.

## Rusiya XİN Avropa İttifaqının rəhbərliyini “qara siyahı”ya salıb



**Rusiya cavab addımı olaraq Avropa İttifaqının (Aİ) rəhbər şəxslərini “qara siyahı”ya salıb”.**

APA xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirlyinin açıqlamasında deyilir.

Siyahıya Avropa İttifaqının rəhbər şəxsləri, o cümlədən Ali Komissarları, Aİ-nin hərbi strukturlarının rəhbərləri, Avropa Parlamentinin əksər deputatları və s. şəxslər daxil edilib.

Rusiya XİN ”qara siyahı” ilə bağlı müvafiq notanı Aİ-nin Moskvadakı nümayəndəliyinə təqdim edib.

# Azərbaycan-Polşa münasibətləri inkişaf edir

Hər iki ölkə siyasi, iqtisadi sahədə əməkdaşlığa açıqdır



**Prezident İlham Əliyev martın 31-də Polşanın Xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Raunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Söhbət zamanı Prezident İlham Əliyev Polşa XİN başçısına 30 illik işğal dövründə ermənilərin torpaqlarımızda vəhşikliklər törətdiklərini, tarixi, dini, mədəni abidələri və digər tikililəri dağıtdıqlarını bildirib.**

Dövlət başçısı işğaldan azad olunmuş ərazilərdə hazırda ölkəmizin üzləşdiyi ən böyük problemin ermənilər tərəfindən basdırılan minalar olduğunu deyib. Z.Rau isə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşacağına ümidvar olduğunu bildirərək, qeyd edib ki, nizamlanmaya aparan indiki mərhələ çox nikbin görünür. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

**Millət vəkili Asim Mollazadə mövzu ilə bağlı ”Şərq”ə danışarkən bildirib ki, səfər təkcə ATƏT-in sədrliyi ilə deyil, eyni zamanda, Azərbaycan-Polşa münasibətləri, rəsmi Bakının Ukraynaya humanitar yardım etməsi ilə bağlıdır:** ”Həmçinin ATƏT-in sədri bölgədə stabilliyi pozmaq istəyən qüvvələrin fəaliyyəti barəsində məlumatlandırılıb. Bununla bağlı Polşa Xarici İşlər Nazirliyi çox ciddi araşdırmalar aparacaq. Hazırda Ermənistanın bölgədə vəziyyəti daha da gərginləşdirəcəyinə dair narahatlıqlar var”.

*A.Mollazadə Azərbaycan-Polşa münasibətlərinə diqqət çəkib:*

”İndi bu münasibətlər inkişaf edir və siyasi, iqtisadi sahədə əməkdaşlığa açıqdır. İndi Polşa şirkətləri Qarabağa böyük qayıdış layihəsində iştirak etmək, öz mütəxəssislərini bu bölgədə minaların təmizlənməsi prosesinə cəlb etmək istəyir. Düşünürəm ki, Polşa XİN başçısının ölkəmizə səfəri bu məsələyə də müsbət təsir göstərəcək”.

**Günəş Mərd**

## Toponimiya Komissiyasının tərkibi dəyişir



**Milli Məclis yanında Toponimiya Komissiyasının tərkibi dəyişir.**

APA-nın xəbərinə görə, bu barədə Milli Məclisin qərar layihəsi parlamentin aprelin 5-də keçiriləcək iclasının gündəliyinə daxil edilib.

Layihəyə əsasən, Toponimiya Komissiyasının vəfat edən üzvləri – Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) H.Əliyev adına Coğrafiya İnstitutunun direktoru Ramiz Məmmədov və AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Müasir Azərbaycan dili şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru, professor Qara Məşədiyev Komissiyanın üzvlərinin siyahısından çıxarılır.

Onlar AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru, professor Akif İmanlı və AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Elşad Abışovla əvəzlənəcək.

Milli Məclis Aparatı rəhbərinin xidmətinin Ərazi vahidlərinin və bələdiyyələrin dövlət reyestri sektorunun müdiri İman Eminov isə Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnzibati ərazi və bələdiyyə məsələləri üzrə qanunvericilik sektorunun müdiri Aqşin Məmmədzadə ilə əvəzlənir.

## Putin israrlıdır

“Qaza görə rublla ödənişdən imtina olunsa, müqavilə dayandırılacaq”



**”Rusiya dost olmayan ölkələrin aprelin 1-dən qaz müqavilələrinə görə ödənişi rublla etməyəcəyi təqdirdə, bunu müqavilə şərtlərinin pozulması hesab edəcək. Ödənişin rublla edilməsindən imtina olunacağı halda, Rusiya qazının alınmasına dair qüvvədə olan müqavilələr dayandırılacaq”.**

APA RİA “Novosti”yə istinadən xəbər verir ki, bu barədə Rusiya Prezidenti Vladimir Putin aviasiya sahəsinə həsr olunmuş iclasda çıxışı zamanı bildirib.

”Rublla ödənişlər olmasa, bunu alıcının müqavilə şərtlərini pozması kimi qəbul edəcəyik” deyən Rusiya lideri diqqətə çatdırıb ki, bunun doğuracağı nəticələr məlumdur.

# "Normallaşma prosesinin nəticəsi yaxın zamanda görünəcək"

**Ceyhun Bayramov:** “Ermənistan tərəfindən bir neçə pozitiv mesaj səslənir, biz bunu görürük”

**ATƏT sədri:** “Hamımızın ortaq məqsədi regionda dayanıqlı sülh və inkişafdır”



**”Avropa İttifaqı ilə yeni sazişin yaxın zamanda tamamlanması gözlənilir”. Bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov ATƏT sədri, Polşanın Xarici işlər naziri Rau Zbignievlə mətbuat konfransında deyib. Nazir bildirib ki, görüş zamanı çoxtərəfli əməkdaşlıq da müzakirə olunub:**

”Avropa İttifaqı və Azərbaycan arasında qarşılıqlı faydalı əməkdaşlıq mövcuddur. O bildirib ki, Azərbaycanın 9 Aİ üzvü ilə strateji tərəfdaşlıq sazişi var: ”Aİ ilə yeni sazişin yaxın zamanda tamamlanması gözlənilir. Polşa Aİ üzvü olaraq Aİ-Azərbaycan əməkdaşlığına töhfə verir”.

**“Real addımların atılmasının zamanıdır”**

Ceyhun Bayramova görə, işğal faktının başa çatması ilə geniş imkanlar yaranıb. Azərbaycanın nəqliyyat kommunikasiyalarının açılması, delimitasiya prosesinə start verilməsi və s. çağırışlarına cavab verilməyib: ”Ermənistanla normallaşma prosesinə dair bir ay əvvəl yeni təklif irəli sürülüb, 5 baza prinsipi təqdim edilib. Biz hələ də konkret cavab gözləyirik. Ermənistan tərəfindən bir neçə pozitiv mesaj səslənir, biz bunu görürük. Güman etmək istəyirik ki, bu, Ermənistanın məsələyə ciddi şəkildə yanaşmasının təzahürüdür. Məsələyə ciddi yanaşma olduğu təqdirdə biz hazırıq, real addımların atılmasının zamanıdır. Biz ümid edirik ki, bunun nəticəsi yaxın zamanda görünəcək”.

**“20 minə yaxın azərbaycanlı Ukraynanı tərk edib”**

Nazir qeyd edib ki, 20 minə yaxın azərbaycanlı Ukraynanı tərk edib: ”4000-ə yaxın vətəndaşımız Polşa sərhədini keçərək Ukraynadan çıxıb. Polşa tərəfi bu məsələdə bizə kömək etdi, sərhədi keçməklə bağlı qaydaları dəyişdi, sadələşdirdi. Bu dəstəyə görə həmkarıma təşəkkür edirəm”.

**”Sülhə istiqamətlənmiş bütün səyləri dəstəkləyirik”**

ATƏT sədri, Polşanın Xarici işlər naziri Rau Zbigniev də öz növbəsində bildirib ki, regiondakı həssas vəziyyətin fərqindədirlər. Onun sözlərinə görə, Polşa münaqişədən sonrakı dövrdə dayanıqlı sülh və barışığa istiqamətlənmiş bütün səyləri təşviq edir və dəstəkləyir: ”Biz regionda təhlükəsizlik vəziyyətindən narahat oluruq, situasiya hələ də həssas olaraq qalır. ATƏT sədri olaraq etimadın yaradılması, post münaqişə dövrü fəaliyyətini dəstəkləmək üçün biz səyləri təşviq edirik. Rusiyanın Ukraynaya qarşı əsassız aqressiyası ATƏT-in mövcudluğunu təhdid edir, çünki qurumun əsas missiyası regionda münaqişələrin həlli istiqamətində çalışmaq və dialoq kanallarını açıq saxlamaqdır. Ümid edirik ki, qurum münaqişə və böhranların həllinin diplomatik və siyasi yolla axtarılması və çoxtərəfli həllinə xidmət edən platforma olaraq qalmağa davam edəcək. ATƏT Azərbaycan və Ermənistan arasında sülh prosesinin irəliləməsinə və hərtərəfli, davamlı həllin tapılmasına töhfə verməyə tam hazırlıqlıdır. Biz Cənubi Qafqazda çoxtərəfli və inklüziv həlli, sülh perspektivini dəstəkləyirik. Bu gün Bakıda, daha sonra isə İrəvanda tərəfləri təmkin göstərməyə, diplomatik əlaqələri intensivləşdirməyə və bütün qalan məsələlərə hərtərəfli həll yolu tapmağa çağıracağam. Mən səmimi şəkildə ümid edirəm ki, humanitar məsələlərdə irəliləyiş olacaq, itkin düşmüş şəxslər barədə qarşılıqlı məlumat mübadiləsi, tarixi və mədəni abidələrin qorunması məsələlərində də danışıqlar öz həllini tapacaq. ATƏT həmçinin delimitasiya və demarkasiya prosesində dəstək verməyə, təcrübəsini paylaşmağa hazırdır. Hamımızın ortaq məqsədi regionda dayanıqlı sülh və inkişafdır”.

**İsmayıl**



# Naxçıvanda məktəb çöküb

Hadisə zamanı 4 nəfər ölüb, 1 nəfər yaralanıb

**Naxçıvanın Babək rayonunun Nehrəm qəsəbəsində məktəb binasının çökməsi nəticəsində 4 nəfər ölüb, 1 nəfər yaralanıb.**

Bu barədə Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyindən məlumat verilib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Babək rayonunun Nehrəm qəsəbəsindəki 3 nömrəli tam orta məktəbdə 2022-ci il martın 1-dən etibarən yenidənqurma işləri həyata keçirilir: ”2022 - ci il 31 mart tarxində Nehrəm qəsəbəsindəki 3 nömrəli tam orta məktəbdə tikinti işləri aparılarkən binanın bir divarının çökməsi nəticəsində 4 tikinti işçisi həlak olub, bir nəfər isə xəsarət alıb. Aidiyyəti qurumlar tərəfindən hadisənin səbəbləri barədə araşdırma aparılır”.

*Nehrəmdə məktəbdə baş verən uçqun nəticəsində ölənlərin şəxsiyyəti məlum olub.*

Bu barədə Baş Prokurorluğun mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, martın 31-i saat 12 radələrində Naxçıvan Muxtar Respublikasının Babək rayon Nehrəm qəsəbəsi 3 saylı tam orta məktəbində aparılan yenidənqurma işləri ilə əlaqədar binanın bir hissəsinin uçması nəticəsində Dövlət Şəhərsalma və Arxitektura komitəsinin Babək rayon idarəsində fəhlə işləyən üç nəfər şəxs hadisə yerində ölüb, bir nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdir. Axtarış-xilasetmə tədbirləri nəticəsində dağıntılar içərisində daha bir nəfərin cəsədi aşkar edilərək çıxarılmışdır. Həlak olan şəxslər: - 2000-ci il təvəllüdlü Qadir Süleymanov, - 1972-ci il təvəllüdlü Həsən Əliyev, - 1961-ci il təvəllüdlü İbrahim Məhərrəmov, - 1988-ci il təvəllüdlü Asəf Rüstəmov. Xəsarət alan şəxs: - 1996-cı il təvəllüdlü Alı Əliyev. Hazırda Babək rayon prokurorluğunda araşdırma davam etdirilir. İctimaiyyətə əlavə məlumat veriləcəkdir.



# Brüsseldə bu dəfə sülh səsi yüksəkdən eşidiləcək

## Avropa İttifaqı Azərbaycan və Ermənistan liderlərinin razılığa gəlməsində maraqlı görünür

**Azərbaycan və Ermənistan liderləri aprelin 6-da Brüsseldə yenidən bir araya gələcək. Bu tarixdə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla üçtərəfli görüşü olacaq.**

Son üç ayda Azərbaycan və Ermənistan liderləri dördüncü dəfə görüşəcək. Birinci görüş 2021-ci il dekabrın 14-də Şarl Mişelin təşəbbüsü ilə reallaşıb. İkinci dəfə tərəflər Brüsseldə təkbətək görüşüblər. Növbəti görüş isə bu il fevralın 4-də Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə baş tutub. Görüşlərdə rəsmi Bakı iki ölkə arasında sərhədlərin delimitasiya və demarkasiyası, sülh sazişinin imzalanması, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi kimi məsələləri iştirakçıların diqqətinə çatdırıb. Azərbaycan 10 noyabr bəyanatının müddəalarının həyata keçməsinin vacibliyini də vurğulayıb. Prezident İlham Əliyev həmin müzakirələrdə humanitar məsələlərlə bağlı Azərbaycanın mövqeyini bir daha açıqlayıb. Dövlət başçısı Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin taleyinin, kütləvi məzarlıqların yerinin müəyyənləşdirilməsi, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi məsələsinə xüsusi olaraq diqqət verib. Rəsmi Bakının əvvəlki görüşlərdə irəli sürdüyü məsələləri yenidən iştirakçıların diqqətinə çatdıracağı gözlənilir. Ehtimal etmək olar ki, əvvəlki görüşlərdə əldə edilən razılaşmaların icra vəziyyəti də müzakirə oluna bilər.

**Politoloq Sədrəddin Soltan deyib ki, Qarabağdakı keçmiş münaqişənin həllində Avropa İttifaqı və Avropanı təmsil edən təşkilatların çox zəif vasitəçiliyi ATƏT-in keçmiş Minsk qrupu və onun həmsədri kimi Fransanın timsalında daha aydın görünüb. Analitikə görə, son zamanlar Aİ-nin Cənubi Qafqaza, xüsusilə Azərbaycana marağı artıb:** ”Avropalılar enerji təhlükəsizliyində Azərbaycanın rolunun artırılması istiqamətində danışıqlar aparır. Bu və başqa iqtisadi layihələrin reallaşması üçün regionda sabitlik və təhlükəsizliyin yaranması vacibdir. Ona görə də demək olar ki, avropalılar son zamanlar fəallaşmaqla həm də qarşılıqlı əməkdaşlığın inkişafını hədəfləyirlər. Rəsmi Bakının əvvəllər irəli sürdüyü Azərbaycanla Ermənistan arasında sərhədlərin müəyyənləşməsi və tezliklə sülh sazişinin imzalanması kimi məsələləri onlar da dəstəkləyir. Hətta bu günlərdə Nikol Paşinyan da Ermənistanla Azərbaycan arasında sülh danışıqlarının dərhal başlamasını, sərhədlərin delimitasiya və demarkasiyası istiqamətində işlərin sürətləndirilməsinin vacibliyini söyləyib. Avropa İttifaqının Azərbaycanla Ermənistan arasındakı problemlərin həllinə marağı Rusiyanın Ukraynada keçirdiyi hərbi əməliyyatlarla da bu və başqa şəkildə əlaqəsi var. Çünki Azərbaycan, Ermənistan, Ukrayna da Gürcüstan, Moldova və Belarusla yanaşı, Avropa İttifaqının ”Şərq Tərəfdaşlığı” Proqramının üzvləridir. Avropa İttifaqı Cənubi Qafqazda sabitliyin Azərbaycan və Ermənistan münasibətlərinin tənzimlənməsindən başladığının vacib olduğunu dərk etdiyindən problemin həllinə diqqəti artırır. İttifaq bu fəallığı ilə rəsmi Bakı və İrəvan arasında etimad mühitinin yaranmasına səy göstərir. Regionda maraqlı olan başqa qüvvələr iki ölkə arasında yaxınlaşmaya, Qarabağdakı erməni icmasının Azərbaycan cəmiyyətinə inteqrasiyasına mane olurlar. Bu baxımdan, rəsmi Bakı və İrəvanın İttifaqa xoş münasibəti nəzərə alınarsa, onda avropalılar tərəfsizlik nümayiş etdirərək bu istiqamətdə uğura nail ola bilərlər”.

**S.Soltanın fikrincə, son üç ayda keçirilən görüşlərin buna xidmət etdiyi istisna olunmur:** ”Bu cəhdlərin davamlı, təkbətək görüşlər müstəvisinə keçməsi istiqamətində uzun-uzadı müzakirələrin əməli addımla əvəzlənməsi iki dövlət üçün günün vacib məsələsidir. Odur ki, bu görüşləri təşkil edən Avropa İttifaqı regional və qlobal əhəmiyyətli bir missiyanı həyata keçirir. Bu həm də İttifaq üçün bir sınaqdır”.

**Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəylinin sözlərinə görə, Ermənistan razılığa dair ismarışlar ötürür:**

”Mühüm olan sərhədlərin aydınlaşması məsələsidir. Tərəflər ilkin razılaşmalara yaxındırlar. Paralel şəkildə isə Ermənistan müəyyən qüvvələrə arxalanaraq təxribata da gedir. Brüssel görüşündə nəticə kimi sülh müqaviləsi gözlənilmir. Amma artıq Avropa İttifaqı, ATƏT, Türkiyə, hətta Rusiyanın mövqeləri elə bir həddə çatıb ki, özəlliklə Türkiyə-Rusiya münasibətlərində Qarabağ məsələsi mütləq şəkildə həllini tapmalıdır.

Fərrux yüksəkliyinin Azərbaycanın nəzarətinə keçməsi torpaqların qalan hissəsinin mərhələli formada azad ediləcəyinə əsaslar yaradır.

Bunun qarşısını heç bir qüvvə ala bilməz. Ermənistan Qarabağ məsələsini qapadıb, orda rəsmiləşdirəcək. Bir növ problem formasında Rusiyayla Azərbaycanın, o cümlədən Qərbdəki ermənilərin üzərinə atır. Prezidentlərin görüşündə yol xəritəsi, konturların məlum olması mümkündür.

Beləliklə də, Türkiyə ilə Ermənistan sərhədi açılsın, beynəlxalq hüququn prinsiplərini özündə əks etdirən Azərbaycanın təkliflərinə Ermənistan tərəfi ”hə” desin. Görüşdə sülh müqaviləsi istiqamətində müsbət irəliləyişlər müşahidə ediləcək”.

**İsmayıl Qocayev,**
**Aygün Tahir**

# Şuşanı dünya bir daha tanıyacaq

## Şəhərin Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi böyük hadisədir








**Azərbaycanın dilbər guşəsi Şuşa milli mədəniyyətimizin beşiyi, dünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermiş şəxsiyyətlərimizin, bir çox məşhur sənətkarların, musiqiçi, memar, rəssam və ədiblərin vətənidir.**

Musiqi, poeziya beşiyi adlanan bu sehirli şəhərdə Azərbaycanın bir çox məşhur mədəniyyət xadimləri yaşayıb-yaradıb. Qarabağın baş tacı Şuşa şəhəri 2023-cü il üçün ”Türk dünyasının mədəniyyət paytaxtı” elan edilib. Bu haqda qərar TÜRKSOY-un Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında verilib.

Xatırladaq ki, 2021-ci ilin 7 mayında Prezident İlham Əliyev Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı olması haqqında sərəncam imzalayıb.

**Təşəbbüsü yüksək qiymətləndirən Xalq yazıçısı Anar Rzayev qeyd edib ki, dünya səviyyəsində kurort, mədəniyyət şəhəri olması üçün Şuşanı tanıtmalıyıq:**

”Sənətimizi, tariximizi, ədəbiyyatımızı sərgiləməliyik. Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsilə Qarabağın dünyada tanıdılması işi daha geniş şəkilə həyata keçiriləcək”.

**Millət vəkili Aqil Abbasın sözlərinə görə, Şuşa yaranandan mədəniyyət paytaxtıdır:**

”Şuşa kimi balaca şəhərdən 150-dən çox Azərbaycanın mədəniyyət, hərbi, elmi sahəsində xadimləri yetişib. Bu barədə yazmışdıq, qurtara bilmədik. Sonra başqaları siyahıya yaddan çıxan şəxslərin adlarını əlavə etməyə başladı. Türk dünyasının mədəniyyət paytaxtı seçilməsi çox böyük tədbirlərin keçirilməsinə imkan yaradacaq. Gələn il Şuşa ilk sakinlərini qarşılayacaq. ”Böyük qayıdış”ın möhürü vurulacaq. Şuşa bütün dünyanın marağındadır. Onlar Vətənimizin gözəlliyini, təbiətini görəcək, havasını udub, suyunu içəcəklər”.

**Aygün Tahir**

# Zelenski heç kimin sözünə inanmır

## “Rus qoşunları Donbasda yeni hücumlar üçün toplanır”



**Ukrayna Prezidenti Vladimir Zelenski Rusiya Müdafiə Nazirliyinin Kiyev və Çerniqov vilayətlərinə hücumları azaltmaq qərarına baxmayaraq, hücumların hələ də davam etdiyinə diqqət çəkib.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, Ukraynadakı mövcud durum haqqında çıxış edən Zelenski heç kimin sözünə inanmadıqlarını bildirib. ”Bəli, danışıqlar prosesi davam edir. Amma bunlar boş sözlərdir. Hələlik heç bir dəyişiklik yoxdur. Rusiya qoşunlarının Kiyev və Çerniqovdan çıxarılması ilə bağlı başqa sözlər də var. Guya, bu istiqamətlərdə işğalçıların fəaliyyəti azalacaq. Biz bilirik ki, bu, diqqəti yayındırmaq deyil, geri çəkilməyin nəticələridir. Müdafiəçilərimizin işinin nəticəsidir.

Amma eyni zamanda görürük ki, rus qoşunları Donbasda yeni hücumlar üçün toplanır və biz buna hazırlaşırıq. Heç kimə inanmırıq, gözəl sözlərə inanmırıq. Döyüş meydanında real vəziyyət var. Ən əsası, heç nədən vaz keçməyəcəyik və hər qarış torpağımız uğrunda mübarizə aparacağıq”.

**Çimnaz**

## NATO Ukraynaya hərbi yardımını davam etdirəcək

**“Lavrovla Kulebanın görüşünə hazırlıq görülür”. Bunu Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, Rusiya Xarici işlər naziri Sergey Lavrovla ukraynalı həmkarı Dmitro Kulebanın görüşünə hazırlıq görülür. Nazir qeyd edib ki, XİN rəhbərlərinin görüşündən sonra prezidentlərin də bir araya gələcəyi ehtimal olunur.** Çavuşoğlu görüşlərin dəqiq tarixinin müəyyənləşmədiyini desə, bir-iki həftə ərzində baş tutacağını istisna etməyib. O, hər iki tərəfin bir-birinin ittiham etməsini vurğulayaraq hər iki tərəfdə döyüşən muzdluların olduğunu bildirib. Çavuşoğlu Vladimir Putinin Türkiyəyə səfərini gözlədiklərini, bunun tarixini rəsmi Moskvanın təyin edəcəyini söyləyib. O qeyd edib ki, Ukrayna neytral status və NATO-ya üzv olmamaqla bağlı tələblərlə razılaşır: ”Krım və Donbasın statusu ilə bağlı liderlər qərar verəcək. Türkiyədə mühüm məsafə qət edildi. Ciddi mövzuları xarici işlər nazirləri müzakirə etməli, daha sonra isə liderlər görüşməlidir”. Xatırladaq ki, Türkiyənin vasitəçiliyi ilə Ukrayna və Rusiya nümayəndələri İstanbulda iki görüş keçiriblər. Görüşlərdə müəyyən məsələlərlə bağlı ilkin razılaşmaların olduğu deyilir.

**“Rusiyanın ciddi itkiləri var”**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib ki, Rusiya ilə Ukrayna arasındakı müharibə dünyanın son vaxtlar görmədiyi, yaşamadığı bir prosesdir. Ərdoğan bildirib ki, Rusiya ərazisinə, əhalisinə, hərbi, siyasi, iqtisadi və mədəni qüdrətinə görə dünyanın ilk üç dövləti sırasında yer alan bir gücdür, qüvvədir: ”Bu vəziyyətə göz yummaq mümkün deyil. Ukrayna da sıradan ölkə deyil. Bu gün Ukraynanın 45 milyona yaxın əhalisi var və sahəsinə görə o qədər də kiçik dövlət deyil. Hazırda, təbii ki, dünya, xüsusən də Qərb Ukraynanı dəstəkləyir, ona sahib çıxır. Belə bir strukturdan söhbət gedir. Bu baxımdan qiymətləndirmələr aparılıb. Əlbəttə, bu da var ki, bəziləri ”Bu müharibə bir həftə, 10 günə bitəcək” deyirdi. Gördüyünüz kimi, bir həftə, 10 günə bu müharibə bitməyib. Bitmədi, amma bitib-bitməməsi bir yana, çoxlu itki var. Xüsusilə uşaq və qadınlar baxımından ciddi itkilər var. İndi onlara məhəl qoymamaq mümkün deyil. Güclü Rusiyanın belə ciddi itkiləri var. Bunu müharibənin qalibi və uduzan tərəfi baxımından yaxşı qiymətləndirmək lazımdır”.

# Savaş uzanır

## Rusiyanın mövqeyində dəyişiklik görünmür



**“Türkiyə Rusiya ilə Ukrayna arasında sülh olması üçün böyük səy göstərir”**

Türkiyənin vitse-prezidenti Fuat Oktay deyib ki, Rusiya-Ukrayna müharibəsinin daha da ağır nəticələr verməməsi üçün başda Prezidentimiz olmaqla, Türkiyə böyük səylər göstərir: ”Sülhü təmin etmək üçün verdiyimiz səylərdən məmnuniyyət duyuruq. Türkiyə olaraq, bölgədə və ondan kənarda daimi sülhün olması üçün məsuliyyətdən heç zaman qaçmadıq. Biz bir çox acıya şahidi olan ölkə kimi, Qara dənizin acılarla anılmaması üçün səylərimizi davam etdirəcəyik”.

NATO Baş katibi Yens Stoltenberq bildirib ki, təhlükəsizlik sahəsinə daha çox vəsait ayırmalıdır. O bildirib ki, ölkələr müdafiə sahəsinə daha çox vəsait ayırdıqda, bu, cəmiyyətlər tərəfindən heç də birmənalı qarşılanmır: ”Çünki vətəndaşlar istəyir ki, onların hökumətləri digər sahələrə - təhsil, tibb, sosial və s. daha çox investisiya qoysun. Ancaq yeni təhlükəsizlik reallığını, Rusiyanın Ukraynaya qarşı müharibəsini və işğal faktını gördükdə biz daha yaxşı başa düşürük ki, təhlükəsizlik sahəsinə daha çox investisiya yatırmalıyıq. Təhlükəsizliyimizi təmin etmədən biz cəmiyyətimizin rifahı ilə bağlı hədəflərimizə nail ola bilmərik. Təhlükəsizlik və sülh bütün səylərin kökündə dayanır. Buna görə də biz daha təhlükəli dünya reallığı ilə üzləşdiyimiz üçün təhlükəsizliyimizə daha çox vəsait ayırmalıyıq”.

**“Ukrayna limanlarının blokadada olması dünyada ərzaq qiymətlərinin artımını tətikləyir”**

Yens Stoltenberq deyib ki, Qara dənizin NATO üçün strateji önəmi böyükdür. O bildirib ki, NATO müttəfiqləri - Bolqarıstan, Rumıniya və Türkiyə Qara dəniz sahili ölkələrdir, həmçinin NATO tərəfdaşları Gürcüstan və Ukrayna da Qara dəniz sahilində yerləşir: ”Qara dəniz və buradakı Ukrayna limanlarının dünya ölkələrinə qida ixracında oynadığı rol hər kəsə bəllidir. Ona görə də Rusiyanın Ukrayna limanlarını blokadaya alması yalnız Ukrayna üçün böyük problem deyil, həmçinin dünya üçün ciddi problemdir. Bu problem dünyada ərzaq qiymətlərinin artımını tətikləyir. Rusiyanın bu blokadanı dərhal aradan qaldırması və Ukraynanın taxıl ixracına imkan verməsi vacibdir”.

**“Ukrayna bizim ortaq dəyərlərimiz üçün savaşır”**

Baş katib bildirib ki, Ukraynanın ehtiyacı olduğu müddətə qədər hərbi dəstək verməyə davam edilməlidir: ”Bu, vacibdir, çünki Ukrayna azadlıq, demokratiya və bizim ortaq dəyərlərimiz üçün savaşır. Biz uzun illər ərzində Ukraynaya dəstək vermişik. Rusiya müharibəyə başladıqdan sonra da NATO müttəfiqləri Ukraynaya hərbi yardım göndərməyə davam edib. Həmçinin, müttəfiqlər Ukraynaya maliyyə və humanitar yardım da göndərir. Ötən həftə keçirilən iclasda da Ukraynaya hərbi dəstəyin davam etdirilməsi ilə bağlı öhdəliyə sadiqlik bir daha təsdiqləndi. Biz dəstəyi davam etdirməliyik. Çünki Rusiya Ukraynada hərbi hərəkətləri davam etdirir. Danışıqların davam etməsi yaxşıdır, lakin biz hələ də Rusiyanın əsas məqsədində dəyişiklik görmürük. Rusiyanın istədiyi bu münaqişədən hərbi nəticə əldə etməkdir və Rusiya bu hərbi nəticəyə nail olmaq üçün davam edir. Belə olan halda biz NATO müttəfiqləri olaraq Ukraynanı hərbi dəstəklə təmin etməyə davam etməliyik”.

Stoltenberq Ukrayna və Rusiya arasında sülh danışıqlarına ev sahibliyi etdiyi üçün Türkiyəyə təşəkkür edib. O həmçinin, qeyd edib ki, rus qoşunları Ukrayna ərazisindən geri çəkilmir, sadəcə, mövqelərini dəyişir: ”Rusiya Ukraynanın şərqindəki Donbas bölgəsində öz hücumunu yenidən qruplaşdırmağa, genişləndirməyə və gücləndirməyə çalışır”.

**“Moskva Kiyevlə əlaqədən imtina etmir”**

Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko bildirib ki, Rusiya Türkiyədən Rusiya və Ukrayna XİN rəhbərlərinin yeni görüşünün təşkilinin mümkünlüyü barədə siqnal alıb. Onun sözlərinə görə, Moskva heç vaxt Kiyevlə əlaqədən imtina etmir. Qeyd edək ki, Türkiyə tərəfinin təşkilatçılığı ilə Rusiya və Ukrayna XİN başçıları arasında görüş mart ayında Antalya Diplomatiya Forumu çərçivəsində keçirilib.

**“Davamlı görüşlər tərəflərin mövqelərinin bir araya gəlməsinə kömək edə bilər”**

**Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli ”Şərq”ə açıqlamasında bildirib ki, Rusiya bir aydan çoxdur Ukrayna ərazisini işğal etməyə çalışsa da, hədəflərinə çata bilməyib. Partiya rəhbəri bildirib ki, Ukraynanın şəhərləri dağıdılıb, insanlar həyatlarını itirib, əhalinin ciddi hissəsi ölkəni tərk edib:** ”Amma Moskva qarşısına qoyduğu məqsədlərə nail olmadı və bundan sonra da olmayacaq. Buna da səbəb Ukraynanın ciddi müqavimət göstərməsidir. Rusiyanın qəbuledilməz şərtləri tərəflərin anlaşma əldə etməsinə mane olur. Buna baxmayaraq, görüşlərin təşkil olunması təqdirəlayiq haldır. Xüsusən, təmasların Ankaranın təşəbbüsü ilə reallaşması və İstanbulda baş tutması Türkiyənin dünyada artan nüfuzunun göstəricisidir. Hesab edirəm ki, davamlı görüşlər tərəflərin mövqelərinin bir araya gəlməsinə kömək edə bilər. Ukrayna tərəfi bəyan edib ki, müəyyən güzəştlərə gedə bilərlər. Məsələn, Kiyev NATO-ya daxil olmaq niyyətlərindən imtina edə biləcəklərini deyib. Hələlik dirənən tərəf Rusiyadır. Moskva irəli sürdüyü şərtlərin qəbuledilməz olduğunu nəzərə almalı və bəzi şərtlərindən geri çəkilməlidir. Ondan sonra müəyyən razılığın əldə olunması mümkündür. Hətta yaxın günlərdə Putin-Zelenski görüşünün baş tutma ehtimalı da böyükdür”.

**İsmayıl Qocayev**

# Bakının şərtləri ağırlaşa bilər

## Hadisələrin inkişafı Ermənistanı sürətli qərarlar qəbul etmək məcburiyyətində buraxır



“İndi rəsmi İrəvan Azərbaycanla dərhal sülh danışıqlarına başlamaqda maraqlı olduğunu hər imkanda təkrarlayır”

İsmayıl Qocayev

**Ermənistana təqdim edilən 5 prinsip beynəlxalq hüququn normalarını əks etdirir. Bunu Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Raunu qəbul edərkən deyib. Dövlət başçısı vurğulayıb ki, bu prinsiplər qarşılıqlı olaraq ərazi bütövlüyünün və beynəlxalq sərhədlərin toxunulmazlığının tanınması, sərhədlərin delimitasiyasıdır:**

”Bunun əsasında Qafqaza sülh gələcək. Biz bunu istəyirik. Cənubi Qafqazın üç ölkəsi arasında Cənubi Qafqazda fəal əməkdaşlıq üçün potensialın olduğunu görürük və hesab edirəm ki, bu, nəinki bu ölkələr üçün, daha geniş region üçün önəmli olacaq. Əlbəttə ki, bütün bu məsələləri çox ehtiyatla və vaxtında həll etmək lazımdır”. Ölkə rəhbəri bəyan edib ki, mümkün olduğu qədər qısa müddətdə sülh sazişi imzalanmalıdır: ”Azərbaycanla Ermənistan arasında münasibətləri nizamlamaq vaxtıdır. Bizə Ermənistan rəsmiləri tərəfindən müəyyən mesajlar daxil olur. Bu yaxınlarda mənə verilən məlumata görə, bu mesajlardan biri də ondan ibarətdir ki, onlar bizim təklifimizi məqbul hesab edirlər. Bu çox yaxşı xəbərdir və ümid edirəm ki, Brüsseldəki görüşdə bu məsələyə daha çox aydınlıq gətiriləcək”.

**Dövlət başçısının növbəti dəfə Ermənistana sülh çağırışını ”Şərq”ə dəyərləndirən politoloq Elçin Xalidbəyli deyib ki, Cənubi Qafqazdakı hərbi-siyasi gərginliyin bu regionda geopolitik proseslərə də təsir göstərə biləcəyi qətiyyən istisna deyil. Analitikə görə, hazırda situasiyanın Ermənistanın əleyhinə olduğu da açıq-aşkar nəzərə çarpır:** ”Rusiya Ukrayna savaşında məğlub duruma düşərək, hərbi-siyasi təsir gücü baxımından sürətlə zəifləyir. Digər tərəfdən Rusiyaya qarşı tətbiq olunan beynəlxalq sanksiyalar bu nəhəng dövləti maliyyə-iqtisadi böhrana doğru sürükləyir. Bütün bunlar Kremlin MDB məkanında, o cümlədən də, Cənubi Qafqazda cərəyan edən geopolitik proseslərə təsir imkanlarını məhdudlaşdırır.

Eyni zamanda, Ukrayna savaşı və Rusiyaya tətbiq olunan sanksiyaların ilkin nəticələri Azərbaycanın geopolitik əhəmiyyəti ilə yanaşı, Avropa dövlətləri üçün də önəmini artırır. Çünki hazırda Avropa dövlətlərinin enerji resurslarına olan ehtiyacları böhranlı həddə çatmaqdadır. Rusiya enerji resurslarından ciddi şəkildə asılı olan Avropa dövlətləri üçün Azərbaycan indi bu sahə üzrə ən önəmli alternativ qaynaqlardan hesab olunur. Yəni çox tezliklə Rusiya Cənubi Qafqaz üzərində təsir gücünü böyük ölçüdə itirməsinə paralel olaraq, Azərbaycan Avropa dövlətləri üçün enerji resursları sahəsində strateji tərəfdaşa çevrilə bilər. Bu halda Avropa Birliyi məkanında ”erməni faktoru”nun Azərbaycanın enerji resurslarının strateji əhəmiyyətinin kölgəsində qalacağı qətiyyən şübhə doğurmur”.

Siyasi şərhçiyə görə, hadisələrin belə inkişafı Ermənistanı sürətli qərarlar qəbul etmək məcburiyyətində buraxır: ”İndi rəsmi İrəvan Ermənistanı xilas etmək istəyirsə, vaxt itirmədən Azərbaycanla yekun sülh sazişini imzalamağa çalışmalıdır. Əks halda Ermənistan həm Türkiyənin, həm də Azərbaycanın artan gücü qarşısında uzun müddət davam gətirə bilməyəcək. Əslində, bu reallığı Ermənistan siyasi dairələrində də anlamağa başladıqları müşahidə edilir. İndi rəsmi İrəvan Azərbaycanla dərhal sülh danışıqlarına başlamaqda maraqlı olduğunu hər imkanda təkrarlayır. Paşinyan hakimiyyəti anlayır ki, əgər bu məsələdə gecikmə olarsa, rəsmi Bakının yaxın gələcəkdə yarana biləcək yeni situasiyaya uyğun olaraq şərtləri də ağırlaşa bilər. Rəsmi İrəvanın son vaxtlar Azərbaycanın yekun sülh sazişinin imzalanması üçün təklif etdiyi beş şərtin Ermənistan üçün məqbul olduğunu vurğulaması da bununla birbaşa bağlıdır. Məsələ ondadır ki, rəsmi Bakının beş şərti birmənalı şəkildə beynəlxalq hüquq normaları çərçivəsində hazırlanıb. Həmin şərtlər əsasən, qarşılıqlı olaraq, ərazi bütövlüyünün tanınmasını, ərazi iddialarından imtina edilməsini, sərhədlərin delimitasiya və demarkasiya prosesində beynəlxalq hüquqa əsaslanmağın vacibliyini və s. nəzərdə tutur. Təbii ki, bütün bu şərtlər Ermənistanın da maraqlarına uyğundur. Ancaq nə qədər qəribə də olsa, rəsmi İrəvan bir tərəfdən Azərbaycanın beş şərtini qəbul etdiyini bəyan edir. Digər tərəfdən isə həmin şərtlərə əlavə etdiyini, onları ATƏT-in Minsk qrupu həmsədrlərinə göstərdiyini və indi Azərbaycanın cavabını gözlədiyini vurğulayır. Və bunun özü də müəyyən mənada, sülh danışıqları prosesini mümkün qədər qəlizləşdirmək cəhdidir”.

**E.Xalidbəyli vurğulayıb ki, Azərbaycanın beş şərtində sülh danışıqlarını əngəlləyə biləcək heç bir məqam yer almır:** ”Rəsmi İrəvanın həmin şərtlərə etdiyi əlavələrdə mübahisə doğuracaq və danışıqlar prosesini uzada biləcək iddiaların olduğu da qətiyyən istisna deyil. Üstəlik, rəsmi İrəvanın öz cavabını və əlavələrini Minsk qrupu həmsədrləri üzərindən Azərbaycana göndərməyə çalışması da kifayət qədər müəmmalı məqamdır. Çünki Minsk qrupu həmsədrlərinin sülh danışıqları prosesinə vasitəçilik missiyasını öz üzərinə götürmək səlahiyyəti yoxdur. 44 günlük savaşın nəticələri bu qurumun hətta fəaliyyətinə ehtiyac qalmadığını da təsdiqləyib. Bütün bunları nəzərə aldıqda, Paşinyan hakimiyyətinin sülh danışıqları prosesinə konstruktiv mövqedən yanaşdığını düşünmək hələ çox çətindir. Çünki rəsmi İrəvan bir tərəfdən Azərbaycanın şərtlərini qəbul etdiyini və sülh danışıqlarına hazır olduğunu bəyanlayır. Digər tərəfdən isə bu prosesi qəlizləşdirə biləcək alternativ addımlar atmağa çalışır. Bu baxımdan, Paşinyan hakimiyyətinin Ermənistanın xarici himayədarlarından danışıqlar prosesində dəstək qarantiyası almadan sülh müqaviləsinin imzalanmasına həvəs göstərəcəyi o qədər də inandırıcı görünmür. Böyük ehtimalla rəsmi İrəvan son 30 il ərzində Minsk qrupu həmsədrlərinin sayəsində vərdiş etdiyi danışıqlar modelinə can atır. Ancaq rəsmi Bakının Ermənistana növbəti dəfə 30 illik danışıqlar şansı tanıyacağı qətiyyən inandırıcı görünmür. Yəqin ki, dünyada sürətlə baş verməkdə olan dəyişikliklər də tezliklə Ermənistanı danışıqlar masası arxasına oturmağa və məhz Azərbaycanın beynəlxalq hüquqa əsaslanan beş şərti çərçivəsində yekun sülh sazişi imzalamaq məcburiyyətində buraxacaq”.



# Artıq maskalardan istifadəyə gərək yoxdur

## Yoluxma sayı təbii şəkildə azalıb, kollektiv immunitet tam formalaşıb

Sücaət Mehti

**Qapalı məkanlarda tibbi maskadan istifadənin ləğvi Milli Məclisdə müzakirə olunur. Bunu Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov bildirib.**

Millət vəkili son zamanlar ölkədə epidemioloji vəziyyətin nəzarətdə olmasının qapalı məkanlarda maskadan istifadə ilə bağlı tələbin aradan qaldırılmasına zəmin yaratdığını diqqətə çatdırıb.

Deputat qeyd edib ki, proqnozlar və hesablamalar, eləcə də gələcək risklər də nəzərə alınaraq məsələ ilə bağlı fikir mübadilələri aparılır: ”Yaxında müzakirələrin nəticəsi bəlli olacaq”.

Tibbi maskadan istifadənin ləğvi ilə bağlı müzakirələr sevindirici haldır. Bu, pandemiyanın bitməsinə belə demək mümkündürsə, işarədir. Bildiyimiz kimi, pandemiyalı günlərdə maskadan düzgün istifadə etməyən şəxslərə cərimələr də müəyyən olunur. Hətta elə şəxslər var ki, onlara bir neçə dəfə cərimə yazılıb. Amma hələ ödəməyiblər. Artıq üzü yaya doğru gedirik, isti havada maska taxmaq hər kəs üçün çətindir. İnsanlar narazılıq edirlər ki, bir tərəfdən qızmar günəşin şüaları, digər tərəfdən də maska istifadəsi xoşagələn deyil.

**Həkim-infeksionist Mərdan Əliyev ”Şərq”ə açıqlamasında tibbi maskadan istifadə tələbinin dünyanın bir çox ölkələrində ləğv olunduğunu bildirib:**
”Ümumiyyətlə, restoranlar, şadlıq sarayları, böyük ticarət mərkəzləri kimi yerlərdə maskanın taxılması artıq məntiqsizdir. Çünki yoluxma sayı da təbii şəkildə azalıb. Bu da o deməkdir ki, kollektiv immunitet artıq tam formalaşıb. Deməli, yenidən yoluxma sayında artımın çox olacağı düşünülmür. Odur ki, maskanın istifadəsinə daha gərək yoxdur. Yalnız insanların sıx təmasda olduğu yerlərdə, məsələn, marşrutlarda adamın çox olduğu vaxtlarda maskanın tibbi zərurəti var. Amma digər hallarda nəinki maskaya, heç peyvənd sertifikatına da ehtiyac yoxdur. Artıq Avropa ölkələrində COVİD-19 pasportu ləğv olunmaq üzrədir. Peyvəndin vurulması hazırda yalnız risk qrupuna daxil olan, yaşı 65-dən yuxarı və xroniki xəstəliyi olan şəxslərə lazımdır. Digər hallarda isə vaksinlənməyə lüzum yoxdur. Cərimələrin bağışlanması isə arzuolunandır”.

# Məhəllədə reyd keçirilib

## Bakıda dilənçilər polisdən “qorunmaq” üçün evlərinə kamera quraşdırıblar




**Bakının Sabunçu rayonu ərazisində dilənçilərin bir qisminin məskunlaşdığı məhəllədə reyd keçirilib.**

**Reyd Daxili İşlər Nazirliyi (DİN) və Sabunçu Rayon Polis İdarəsinin (RPİ) əməkdaşları ilə birgə baş tutub. Reyd zamanı bir çox ailənin qeydiyyatda olmadığı aşkarlanıb.**

Məlum olub ki, dilənçilər polisdən ”qorunmaq” üçün evlərinə təhlükəsizlik kamerası quraşdırıblar.

DİN-in Mətbuat Xidmətinin polis leytenantı Nurlan Əliyev ”Report”a bildirib ki, avara və tüfeyli həyat tərzi yaşayan şəxslərə qarşı mütəmadi tədbirlər görülür:

”Bu kimi neqativ hallarla rastlaşdıqda, ərazi üzrə fəaliyyət göstərən polis əməkdaşları tərəfindən həmin şəxslərlə profilaktiki söhbətlər aparılır. Əgər həmin şəxslər məsələyə etinasız yanaşırsa, onlar barəsində qanunamüvafiq tədbirlər həyata keçirilir”.

”Qeyd edək ki, dilənçiliklə məşğul olan şəxslərin ölkədə uzunmüddətli qalmalarına baxmayaraq, onların nə şəxsiyyətlərini təsdiq edən sənədləri, nə də yaşayış üzrə qeydiyyatları var. Maddi vəziyyətlərindən asılı olmayaraq, dilənçilik və avaralıq onların həyat tərzidir. Onların digər vətəndaşlara mane törətdiklərini nəzərə alaraq, belə hallar daim diqqətdə saxlanılır və qanunauyğun olaraq həmin şəxslər barəsində tədbirlər görülür”, - DİN rəsmisi vurğulayıb.

# Türkiyənin gənc işçi qüvvəsi Avropa bazarını fəth edə bilər

## Ona görə Avropa qapılarını Ankaranın üzünə bağlayıb



**“Ukrayna xüsusilə NATO-ya üzvlüklə bağlı çox israrlı mövqe nümayiş etdirmir. Əslində Ukraynanın Avropa İttifaqı məsələsində də çox israrlı olacağını düşünmürəm. Çünki bəziləri istisna olmaqla, Avropa İttifaqına üzv dövlətlər buna ciddi yanaşmadılar”.**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Özbəkistandan səfərdən qayıdarkən jurnalistlərə müsahibəsində bildirib.

”Bütün bunlara baxmayaraq, mən cənab Putinin Ukraynanın Avropa İttifaqına daxil olmasına müsbət münasibətini eşitdim və öyrəndim. Təbii ki, bu görüşlər zamanı yekun vəziyyəti öyrənəcəyik. Onunla görüşüm zamanı bunu eşitmək bizə bu istiqamətdə atılacaq addımları daha düzgün qiymətləndirmək imkanı verəcək. Bilirsiniz, 1963-cü ildən bəri Avropa İttifaqı bizə nə etdi? Davamlı şəkildə yayındırdı, hələ də başımızı qatırlar. Biz Ukraynanın təhlükəsizliyinə təminat vermək baxımından təminatçı ölkələrdən biri ola bilərik, buna prinsip kimi baxırıq, lakin sözsüz ki, bunun təfərrüatlarına aydınlıq gətirilməlidir”, - dövlət başçısı vurğulayıb.

**Türkiyə prezidentinin Avropa İttifaqı ilə bağlı açıqlamasını ”Şərq”ə dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli Ərdoğanın Avropa İttifaqı ilə bağlı dediklərində haqlı olduğunu bildirib:**

”İllərdir Türkiyəni tamhüquqlu üzv etməmək üçün hər cür bəhanə törətdilər. Mərkəzi hakimiyyətin də zəifliyindən istifadə edib ögey münasibətdə qaldılar. Ancaq qaçqın böhranında, bölgədə baş verən müharibə ehtimallarında Avropanın Rusiya-Türkiyə düşmənçiliyindən faydalandığının şahidi olduq. İndiki proseslərin də cərəyan etməsinin bir səbəbi Avropa Birliyi ölkələridir. Təbii ki, Türkiyənin artıq bir güc mərkəzi olaraq Aİ-yə bu cür münasibət göstərməsinin ayrıca haqlı tərəfləri var”.

**Ekspert eyni zamanda Avropa İttifaqının Türkiyəyə qarşı münasibətinin səbəblərindən danışıb:**

”Türkiyənin əhalisi çoxdur, ərazisi böyükdür və gənc işçi qüvvəsinə malik olan bir dövlət kimi Şengen vizasının da tətbiq olunacağı bir dönəmdə Türkiyə gəncləri Avropa əmək bazarını fəth edəcəklər. Türklər bu mənada işgüzardırlar. Biznes sferalarında da çox ciddi şəkildə inkişaf edirlər. Biz Almaniya nümunəsində bunun şahidi ola bilərik. Ona görə də, bu, Türkiyənin Avropanın içərisinə daxil olub inkişafını şərtləndirəcək böyük bir amil kimi görünür. Onlar bu cazibəni ona vermək istəmirlər. Tükiyəni coğrafi, siyasi və sivilizasiya mənasında Şərqdə, Suriyanın, İranın, İraqın qonşuluğunda saxlamağa çalışırlar”.

Sənan İsmayıl

# Vəziyyət gərgindir

## “Putinin Zelenski ilə eyni masada oturacağına inanmıram”

Çimnaz Şahlar



**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu ”Ahaber”ə müsahibəsində Rusiya Xarici işlər naziri Sergey Lavrovla ukraynalı həmkarı Dmitro Kulebanın görüşünə hazırlıq görüldüyünü bildirib.**

Nazir Rusiya və Ukrayna nümayəndə heyətlərinin İstanbuldakı görüşündən danışaraq növbəti görüşün Sergey Lavrov və Dmitro Kuleba arasında keçiriləcəyini gözlədiklərini bildirib. Onun sözlərinə görə, bundan sonra Ukrayna Prezidenti Vladimir Zelenski və Rusiya Prezidenti Vladimir Putin arasında görüşün keçiriləcəyi ehtimal olunur.

Nazir görüşlərin dəqiq tarixinin müəyyənləşmədiyini desə, bir-iki həftə ərzində baş tutacağını istisna etməyib. O, tərəflərin bir-birinin ittiham etməsini vurğulayaraq hər iki tərəfdə döyüşən muzdluların olduğunu bildirib. Çavuşoğlu Vladimir Putinin Türkiyəyə səfərini gözlədiklərini, bunun tarixini rəsmi Moskvanın təyin edəcəyini söyləyib.

**Çavuşoğlunun açıqlamaları barədə ”Şərq”ə danışan politoloq Azər Rəşidoğlu bildirib ki, Rusiya prezidentinin ukraynalı həmkarı ilə görüşə razılıq verməsi Vladimir Putinin iflası deməkdir:** ”İstənilən müstəvidə görüş ola bilər. Ancaq burada ən mühümü V.Putinlə V.Zelenski arasındakı görüşdür. İndiyə qədər Putin bu görüşdən imtina edib. Çünki o, Zelenskini özünə bərabər bir siyasi xadim kimi qəbul etmirdi. O, hətta Ukraynanı dolayısı ilə Rusiyanın ərazisi adlandırırdı. Putinin Zelenski ilə bir masada oturması Ukraynanı və Zelenskini münaqişə tərəfi kimi qəbul etməsi deməkdir. Rusiya liderinin bununla razı olmasına isə inanmıram. O, əgər bu addımı atacaqsa, Zelenski ilə görüşə razılıq verəcəksə, indiyə kimi atdığı addımların və xüsusilə də, Ukraynanın işğal əməliyyatının uğursuzluğa düçar olduğunu açıq etiraf etmiş olacaq. Bu ölkə daxilində onun rəqiblərinin əlinə əlavə fürsətlər verəcək ki, buna da Putinin tam iflası demək olar”.

Politoloqun fikrincə, Ukrayna-Rusiya cəbhəsində döyüşlərin davam etməsi Qərb dövlətlərinin işinə gəlir: ”Ehtimal edirəm ki, Rusiya prezidenti bu görüşün baş tutmamasına çalışacaq. Ukrayna lideri isə ilk gündən onu görüşə, istənilən variantın müzakirəsinə dəvət edir. Bu görüşmədən imtina edən hər zaman Putin idi. Bu qədər sanksiya və döyüşdən sonra onun Zelenski ilə görüşə razılıq verəcəyinə, hətta dünyanın və Ukraynanın tələblərini qəbul edəcəyinə inamım yoxdur. Güman edirəm ki, Qərb də buna müsbət yanaşmayacaq. Çünki Qərbin istəyi bu münaqişənin daha uzun müdət davam etməsi, sanksiyaların daha sərt formaya keçməsi və Rusiyanın çöküb imperiyaçı çağırışlardan və fəaliyyətdən uzaq durmasıdır. Bu baxımdan hər hansı görüşün uzunmüddətli sülhə nail olacağını güman etmirəm”.

“O, əgər bu addımı atacaqsa, Ukraynanın işğal əməliyyatının uğursuzluğa düçar olduğunu açıq etiraf etmiş olacaq”

**Azər Rəşidoğlu hesab edir ki, prezident səviyyəsində olmayan görüşlərin xüsusi bir əhəmiyyəti olmayacaq:**

”Əlbəttə ki, bu müharibə də uzun müddət davam edə bilməz. Ancaq münaqişənin qısa zamanda həll olacağına ümid etmirəm. İstənilən vəziyyətdə, Putin istər prezident, istər siyasi xadim kimi artıq iflasa uğrayıb. Bu münaqişənin istənilən halında Putin siyasi hakimiyyətdən getmək təhlükəsi ilə üzləşə bilər. Bu seçkidə, seçkiyə qədərki müddətdə, hərbi çevriliş cəhdi ilə və yaxud Putinin tam əmək qabiliyyətini itirməsi nəticəsində də baş verə bilər. Digər görüşlər isə heç bir önəm kəsb etmir. Yəni burada əsas Ukrayna və Rusiya prezidentinin eyni masa arxasında əyləşməsidir. Başqa görüşlər yalnız yardımçı rolu oynaya bilər”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-Kütləvi, Mədəni-Maarif, Təhsil Proqramlarının Hazırlanması**



# Tələbələr üçün yeni iş imkanları açılır

## Ali məktəblərin profillərinə uyğun müəssisə və şirkətlərlə əməkdaşlığı təqdir olunmalıdır

**Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən, cəmiyyətin inkişafında elmin əhəmiyyətini nəzərə alaraq, hər il martın 27-si ölkəmizdə "Elm günü" kimi qeyd edilir. Bununla əlaqədar bir neçə gündür ki, paytaxtda, eləcə də regionlardakı ali təhsil müəssisələrində elmi konfrans və seminarlar təşkil olunur.**

Üstün cəhət budur ki, bu tədbirlər məhz tələbələrin iştirakı ilə keçirilir. Analoji tədbirlərdən biri Azərbaycan Dövlət İqtisad Universitetində baş tutub. UNEC Karyera mərkəzinin dəstəyi və "Kapital Bank"ın təşkilatçılığı ilə tələbələr arasında "Bir ideyam var" layihəsinin təqdimatı keçirilib. Tədbirdə UNEC-in müəllim-tələbə heyəti və "Kapital Bank"ın nümayəndələri iştirak ediblər. UNEC-in rəqəmsallaşma üzrə prorektoru, dosent Raqif Qasımov layihənin əhəmiyyətindən danışaraq, tələbələrə bu istiqamətdə fəal olmağı tövsiyə edib. Sonra "Kapital Bank"ın nümayəndələri Məhəmməd İbrahimov və Azadə Hacıyeva təmsil etdikləri bankın fəaliyyət istiqamətləri, vakansiyalar, təcrübə proqramları, layihələr barədə tələbələrə məlumat veriblər. "Bir ideyam var" layihəsi barədə təqdimatla çıxış edən bankın HR üzrə biznes partnyoru Günay Məmmədrəsulzadə bildirib ki, layihə bakalavrın sonuncu kurs və magistr tələbələrinə şamil olunur və innovativ texnologiyaların bank sahəsində tətbiqi, bank üçün yeni rəqəmsal məhsul və xidmət təklifləri, xidmət səviyyəsinin yüksəldilməsi kimi mövzuları əhatə edəcək. Layihəyə son müraciət tarixi 10 apreldir. Qaliblərə "Kapital Bank"dan pul mükafatı, sertifikat təqdim olunacaq və bankda təcrübə keçmək imkanı əldə edəcəklər. Bankın nümayəndəsi Fidan Hüseynova isə "Agile" (çevik) metodu, ümumi prinsipləri və faydaları barədə danışıb.

Mingəçevir Dövlət Universitetində isə Mühəndislik fakültəsinin Tələbə Elmi Cəmiyyətinin iştirakı ilə XIV elmi konfransı keçirilib. "Microsoft Teams" platforması üzərindən onlayn formatda keçirilən konfransda universitetin professor-müəllim heyəti üzvləri, tələbə və magistrlar iştirak ediblər. Konfransda çıxış edənlər son dövrdə universitetdə tələbələrin elmi fəaliyyətə marağının artmasını müsbət dəyərləndirib, təhsilalanların tədqiqat bacarıqlarının inkişafı istiqamətində yaradılan imkanlardan bəhs ediblər. Ölkəmizdə elmi potensialın inkişafında tələbə elmi konfranslarının önəmi vurğulanıb. MDU-nun Mühəndislik fakültəsinin tələbələrindən Xəyal Kərimli "Nanotexnologiya və ətraf mühit", Salatın Rəhimova "Data mining: Verilənlərin intellektual analizi texnologiyası", Tural Kərimov "Osmotik-mavi enerji", Ruhiyyə Məmmədova "İntellektual robotların vəziyyəti və inkişaf perspektivləri" və Qızbəs Ağayeva "Meşələrdən istifadənin ekoetik problemləri", Nihad Xəlilov "DevOPs-un imkanları və perspektivləri", Məhəmməd Cumayev "Mühafizə dronu", Səbinə Cəfərova "Blokçeyn texnologiyasının ağıllı şəhərlərə tətbiqi", Əsmər Əliyeva "Müəssisədə keyfiyyət infrastrukturunun inkişafı rəqabətədavamlı məhsul istehsalının vacib amilidir" və Şəhanə Şakirqızı "IV Sənaye texnologiyası dövründə süni peyklərin rolu və inkişaf perspektivləri" mövzusunda məruzələrini təqdim ediblər. Sonra məruzələr ətrafında müzakirələr aparılıb. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Magistratura və doktorantura şöbəsinin və Məktəbəqədər təhsil fakültəsinin Xüsusi təhsil kafedrasının birgə təşkilatçılığı ilə "Dost xromosom saymaz" adlı elmi seminar keçirilib. Seminarda professor-müəllim heyəti, magistrantlar, tələbələr, daun sindromlu uşaqlar və onların valideynləri iştirak ediblər. Seminarda dinlənilən məruzələrdə ölkəmizdə və dünyada bu sahədə aparılan tədqiqatların nəticələrinin faydaları, daun sindromlu insanlarla davranışlarda, onların cəmiyyətə inteqrasiyasına yardım edilməsində istifadə olunan yeni metodlardan, bu insanların müxtəlif bacarıqları mənimsəməsinə yardım edilməsindən danışılıb.

***"Sevindirici olan həm də budur ki, elmi seminar və konfranslarda tələbələrin aktiv iştirakı təmin edilir, tələbələr müxtəlif məzmunlu məruzələrlə çıxış edirlər"***

Bu cür elmi-konfransların elmin inkişafına təkan verməsi üçün hansı addımlar atılmalıdır?

**Təhsil eksperti Elçin Əfəndi "Şərq"ə açıqlamasında qeyd etdi ki, "Elm günü"ylə bağlı tədbirlərin keçirilməsi, əlbəttə uğurlu yanaşmadır:**

- Bunlar müasir çağırışlara cavab verəcək addımlardır. Sevindirici olan həm də budur ki, elmi seminar və konfranslarda tələbələrin aktiv iştirakı təmin edilir, tələbələr müxtəlif məzmunlu məruzələrlə çıxış edirlər. Ola bilər tələbələr məruzələrin mövzusunu maraq dairəsinə aid, daha dərindən öyrənmək istədiyi, bəlkə də təhsilini başa vurduqdan sonra çalışmaq istədiyi sahəyə uyğun seçirlər. MDU-da keçirilən elmi-seminarda təqdim olunan məruzələrdən görünür ki, tələbələr müasir texnologiyaların, virtual və rəqəmsal aləmin üstünlüklərini öyrənməyə meyillidirlər. Belədirsə, onların həmin sahə üzrə ixtisaslaşmasını təmin etmək və o sahədə çalışmasına şərait yaratmaq lazımdır. Bunu isə ali təhsil müəssisələri ilə əməkdaşlıq edən şirkətlər, korporasiyalar edə bilər. Məsələn, çox yaxşı haldır ki, UNEC-in tədbiri "Kapital Bank"la birgə təşkil olunub. Verilən məlumatda qeyd olunur ki, "Kapital Bank"ın əməkdaşları orda iştirak edib, ideyaları bəyəniləcək tələbələrə bankda təcrübə keçmək imkanı yaradılacaq. Mümkündür ki, bank işi ixtisasını yaxşı öyrənən tələbələr təhsillərini başa vurduqda bankda işlə təmin edilsin. İstənilən halda elmi konfranslarda, ali təhsil müəssisələrinin keçirdiyi tədbirlərdə hansısa şirkət iştirak edirsə, bu həm təhsil müəssisəsi, həm də həmin şirkətin fəaliyyəti üçün müsbətdir. Tələbələrin öyrəndikləri sahəyə marağı daha da artır, şirkət isə kadr potensialı əldə edir. Ali məktəblər profillərinə uyğun müəssisə və şirkətlərlə əməkdaşlıq etməlidir. Əməkdaşlıqdan bütün tərəflər mənfəət əldə edə bilər. Şirkətlərlə əməkdaşlıq tələbələrə karyera qurmaq imkanı verir. Onlar üçün iş imkanları açılır. Ali məktəblər isə tələbələrin təcrübə keçməsi üçün yeni sahələr əldə edir. Lakin belə tədbirlər təkcə "Elm günü" deyil, vaxtaşırı keçirilməlidir.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# "Gürcüstanda Azərbaycan dilli məktəblərin sayı ciddi şəkildə azalıb"

## Aygül İsayeva: "Bu gün gənc və yaşlı kadrlar birgə, müştərək işləyib təcrübələrini bir-birilə bölüşməlidir"



**"Gürcüstandakı Azərbaycan dilli məktəblərdə ana dili və kadr çatışmazlığı çox ciddi problemdir. Bu, hamımızı narahat edən ən əsas məsələlərdən biridir". Bu fikirlər iqtisadiyyat üzrə fəlsəfə doktoru Aygül İsayevaya aiddir. A.İsayeva mövcud problemlə bağlı geniş məqalə ilə çıxış edib. O bildirib ki, son illər Gürcüstandakı Azərbaycan dilli məktəblərin sayı ciddi şəkildə azalıb:**

- Bu gün riyaziyyat, fizika, kimya, Azərbaycan dili və ədəbiyyatı və s. fənləri Azərbaycan dilində tədris edən kadrların əksəriyyəti yaşlı insanlardır. Allah ömür versin onlara. Cavan kadrlar azlıq təşkil edir, aralarında bəzi qeyri-peşəkarlar da var. İşinin peşəkarı olan gənclərimizi inkar etmirik. Bəzən yaşlı kadrlara "sovet dövrünün qalıqları" kimi baxıb onların əziyyətini ayaq altına atırlar. Ancaq unutmaq lazım deyil ki, məhz həmin "sovetin qalıqları" adlandırdığınız müəllimlər 90-cı illərdə aylarla maaş almadıqlarına baxmayaraq (bəli, acı reallıq budur: aldıqları bir aylıq maaşa bir çörək almaq mümkün idi), məktəbdə təhsil-tədris prosesini dayandırmamışdılar, bütün çətinliklərə baxmayaraq fədakarcasına elin-obanın çətin günlərində övladlarımızın təhsil almasına çalışırdılar, məktəbdən ayrılmırdılar. Bu gün gənc və yaşlı kadrlar birgə, müştərək işləyib təcrübələrini bir-birilə bölüşməlidir.

***"Azərbaycan məktəblərində kadr çatışmazlığını həll etməyin yeganə yolu Gürcüstanda tez bir zamanda Azərbaycan-Gürcüstan müştərək universitetin əsasının qoyulmasına nail olmaqdır"***

Qeyd edək ki, bir neçə il əvvəl Gürcüstanda yaşlı nəslin nümayəndəsi olan müəllimlərin işdən kənarlaşdırılması prosesi başladı, bəziləri təqaüdə göndərildi. O cümlədən azərbaycanlı müəllimlər də. Kadr çatışmazlığının bir səbəbi də budur. Köhnələr uzaqlaşdırılıb, yenilərsə kifayət etmir. Hazırda elə müəllimlər var ki, onlar yenidən tədris prosesinə cəlb olunmaq istəyir, buna potensialları da var. Bu müəllimlərlə qısamüddətli əmək müqaviləsi də bağlana bilər. Yaxşı olardı ki, potensiala malik yaşlı müəllimlər yenidən tədrisə cəlb edilsin. Bu, gənc kadrların təcrübə toplamasına da yardımçı olar.

**A.İsayeva hesab edir ki, Gürcüstanda əsası qoyulacaq müştərək Azərbaycan-Gürcüstan Universitetinin mövcud problemin həllində əhəmiyyətli rola malik ola bilər:**

- Azərbaycan məktəblərində kadr çatışmazlığını həll etməyin yeganə yolu Gürcüstanda tez bir zamanda Azərbaycan-Gürcüstan müştərək universitetin əsasının qoyulmasına nail olmaqdır (əlbəttə ki, belə bir universitetdə Azərbaycan dilində digər fənləri mənimsəməklə yanaşı gürcü dilinin öyrənilməsi də mütləq nəzərdə tutulmalıdır, bakalavr pilləsində təhsil aldığı dövrdə 4 il ərzində hər gün gürcü dili də keçilməlidir). Azərbaycan dövlətinin dəstəyi ilə bunu reallaşdırmaq olar. İlbəil Gürcüstanda Azərbaycan məktəblərinin sayı azalmaqdadır, ANA dili ölmək üzrədir, kadr çatışmazlığı ilə əlaqədar bu problem 5-6 ilə daha kəskin şəkildə hiss olunacaq. Gələcək fəsadlardan yayınmaq üçün indidən həyəcan təbilini çalmaq və hərəkətə keçmək mütləqdir. Etnik azlıqların ana dilində təhsil almaq hüquqları Gürcüstan konstitusiyasında da öz əksini tapıb. Gürcüstan dövlətinin qəbul etdiyi "Ümumtəhsil haqqında qanun"-a (2005) əsasən etnik azlıqlar öz ana dilində tam ümumi təhsil almaq hüququna malikdirlər. Gürcüstan bütün əsas beynəlxalq hüquq təşkilatlarının üzvüdür. Gürcüstan Avropaya inteqrasiya yolunu seçib, "Avropa ailəsi"nin bir üzvü olmaq üçün Avropa standartlarına uyğun hərəkət etməlidir, Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməlidir. Avropa Şurası Gürcüstanda yaşayan etnik azlıqların Gürcüstan vətəndaş cəmiyyətinə inteqrasiya etməsi üçün, təhsildə islahatların aparılmasına dəstək olmaq üçün hər il Gürcüstana külli miqdarda vəsait ayırır. Bu pullar təyinatı üzrə xərclənsəydi nəticələr də olardı.

**Məlahət Rzayeva**

# Dağıstanda 5 minə yaxın vətəndaşımız quru yolun açılmasını gözləyir

**Fazil Mustafa:**
"Ay məmurlar, cəhənnəm olsun pandemiya, zillət içində qalan odun deyil, Azərbaycan vətəndaşıdır!"

**Seymur Verdizadə:**
"Dağıstandakı soydaşlarımızın üzləşdiyi problemdən mən də xəbərdaram, insanları belə çıxılmaz vəziyyətdə qoymaq olmaz"



**Pandemiyanın ağır nəticələri qonşu ölkələrə quru yol vasitəsilə gediş-gəlişi də iflic edib. Quru yollarının hələ də bağlı olması, təyyarə biletlərinin hədsiz baha qiymətə satılması əhalinin gediş-gəlişini əməlli-başlı məhdudlaşdırıb.**

Məlumata görə, Rusiya-Azərbaycan sərhədində, Dağıstanda 5 minə yaxın Azərbaycan vətəndaşı Rusiya ilə dövlət sərhədinin açılmasını gözləyir. Deyilənə görə, onlardan 1200 nəfəri Kaytaq rayonundakı müvəqqəti məskunlaşma mərkəzində, 2,5 mindən çoxu Dərbənddəki mehmanxanalarda yerləşdirilib. Bəziləri isə yerli sakinlər tərəfindən sığınacaq alıb, daha 1000 nəfərə yaxın insan isə Məhərrəmkənd rayonunda sərhədlərin açılmasını gözləyir. Xatırladaq ki, Azərbaycan və Rusiya Federasiyası arasında quru sərhədləri 31 mart 2020-ci il tarixindən etibarən bağlanıb.

**Problemlə bağlı millət vəkili Fazil Mustafa da feysbukda status yazıb. Deputat bildirib ki, Mahaçqalada qiyabi təhsil alan bir tələbə ona zəng edərək hönkür-hönkür ağlayıb:** "40 gündür universitetdə dərs üçün gedib, indi geri dönməyə yol yoxdur. Deyir, hökumətimiz öz ölkəmizə quru sərhədimiz bağlı olduğuna görə buraxmır". Millət vəkili problemin həlli üçün məmurlara müraciət edib: "Minlərlə bu cür acınacaqlı durumda qalan Azərbaycan vətəndaşı var Dərbənddə, Mahaçqalada, Gürcüstanda.. Kimə başa salasan, kimə anladasan. Səfirliyimiz problemi çözməyə acizdir. Ay məmurlar, cəhənnəm olsun pandemiya, zillət içində qalan odun deyil, Azərbaycan vətəndaşıdır! Təcili açın qapıları, öz vətənlərinə dönsünlər. Təminat verirəm, heç bir xəstəlik-filan artmayacaq. Ac-yalavac nə qədər yad ölkədə çöllərdə qalacaqlar, aşağılanacaqlar!".

**Millət vəkili Zahid Oruc quru sərhədlərinin bağlı olması ilə əlaqədar Milli Məclisə, o cümlədən ona çoxlu müraciətlər gəldiyini deyib. Parlament üzvü vurğulayıb ki, məsələ parlamentin mart ayında keçirilən iclasında da səsləndirilib:** "Baş nazir vurğuladı ki, bu məsələ Operativ Qərargahın, eyni zamanda hökumətin diqqət mərkəzindədir. Lakin açıq danışsaq, problemin görünməyən hissəsi ətrafında tam məlumatlar ictimailəşmədi. Dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir vətəndaşın hüquq və mənafelərinə diqqətlə yanaşmalı, qayğı göstərməliyik. Pandemiya elə arzuolunmaz vəziyyət yaratdı ki, ən qabaqcıl dünya ölkələri belə ekstremal addımlar ata bilmədilər. Hər kəs başa düşməlidir ki, Azərbaycan dövləti bütün bu çağırışların fərqindədir. Operativ Qərargah tərəfindən bu məsələ geniş təhlil edilir. İnanırıq ki, quru yolunun açılması ilə bağlı cəmiyyəti qane edən bir qərar veriləcək".

**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, "yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə deyib ki, koronavirus hər birimizin həyatına mənfi təsir göstərdi. JAM rəhbərinin sözlərinə görə, biz pandemiyanın əziyyətini hələ bir müddət də çəkəcəyik:** "Həm Azərbaycan dövləti, həm də xalqımız bu beladan maksimum az itki ilə çıxmaq üçün əlindən gələni etdi. Məncə, təhlükəli dövr artıq geridə qalıb. Gündəlik yoluxma sayı iki rəqəmlə ölçülür. Buna görə də bəzi qadağaları ləğv etmək olar. Azərbaycanın quru sərhədlərinin açılması da bu kateqoriyaya daxildir. Ermənistan istisna olmaqla qonşularımızla sərhədləri açmağın vaxtı çatıb. Dağıstandakı soydaşlarımızın üzləşdiyi problemdən mən də xəbərdaram, insanları belə çıxılmaz vəziyyətdə qoymaq olmaz. Artıq stadionlara giriş sərbəst elan olunub, tamaşaçı məhdudiyyəti aradan qaldırılıb. Bu o deməkdir ki, ya zəlzələdən, ya da vəlvələdən Çempionlar Liqasının finalı Bakıda keçirilsə, 50-60 min adam stadionda bir araya gələ biləcək. Əgər bu risk göz önünə alınaraq, stadionlarda azarkeş sayı ilə bağlı məhdudiyyət ortadan qaldırılıbsa, koronavirusla bağlı digər məhdudiyyətlər də ortadan qaldırılmalıdır. Onsuz da obyektiv və subyektiv səbəblər üzündən həyatımız xeyli çətinləşib. Rəsmi şəxslər, məmurlar getdikcə ağırlaşan həyatımızı daha da ağırlaşdırmasınlar".

**İsmayıl Qocayev**

## Fətəlibəyli və Beriya haqqında yeni materiallar...

Müəmmalı tariximizlə bağlı iki yeni kitab işıq üzü görüb



**"Çapar" tarix dərgisinin baş redaktoru, İstanbul Universitetinin doktorantı, araşdırmaçı-yazar Dilqəm Əhmədin iki yeni kitabı işıq üzü görüb.**

"Çapar" nəşrlərində "Müəmmalı tarix" seriyası ilə çap olunan kitablarda tariximizin iki maraqlı dövrü haqqında yeni materiallar təqdim olunub. "Sənin Abo. Əbdürrəhman Fətəlibəyli Düdənginskinin məktubları" adlı kitabda II Dünya müharibəsindən sonra Avropa düşərgələrində qaçqın vəziyyətində yaşayan azərbaycanlıların taleyi araşdırılıb, onlar haqqında məlumat verilib.

Kitabda Azərbaycan İrtibat Heyətinin rəhbəri Ə.Fətəlibəylinin qaçqınların Türkiyəyə yerləşdirilməsi uğrunda apardığı mücadilə geniş şəkildə əks olunub. Bu fəaliyyəti ilə bağlı Fətəlibəylinin 15 məktubu ilk dəfə olaraq kitabda yer alıb. Eləcə də Ə.Fətəlibəylinin həyat yoldaşı Leyla Qaziyevanın məktub və müsahibəsi də kitabda öz əksini tapıb. Əsərdə həmçinin Avropa düşərgələrində yaşayan qaçqın azərbaycanlıların 15-ə yaxın məktub təqdim olunub.

Müəllif kitabı yazmaq üçün Türkiyənin tanınmış jurnalisti, Azərbaycan Cümhuriyyəti Maliyyə naziri Əbdüləli bəy Əmircanovun kürəkəni Ziyad Əbüzziyanın İstanbulda İSAM kitabxanasında qorunan arxivində çalışıb, eləcə də 1948-1950-ci illərdə çıxan Türkiyə mətbuatında tədqiqat aparıb.

Tarixçi, jurnalist Ruslan Rəhimovla birgə qələmə alınan "Beriya müəmması" kitabında isə SSRİ-nin ikinci şəxsi olan Lavrenti Beriyanın Azərbaycan Cümhuriyyəti dövründə Əksinqilabla Mübarizə Təşkilatında işlədiyi dövrə nəzər yetirilib. Beriyanın öldürülməsindən sonra Türkiyənin "Vatan" qəzetinin müxbiri Sadun Tanjunun qələmə aldığı "Beriya müəmması" yazı seriyası ilk dəfə olaraq kitaba əlavə olunub. "İngilis agenti", "Müsavat agenti" ittihamları ilə də suçlanan Beriya haqqında türk jurnalistin o illərdə Türkiyədə yaşayan 5 azərbaycanlı ictimai-siyasi xadimdən (Məhəmməd Əmin Rəsulzadə, Nağı bəy Şeyxzamanlı, Mirzəbala Məhəmmədzadə, Məhəmmədsadıq Aran, Mustafa Vəkiloğlu) Beriyanın qətli ilə bağlı alınan müsahibələr tarixşünaslığımız üçün yenilikdir. Kitaba Mirzəbala Məhəmmədzadənin Beriya haqqında yazdığı iki məqalə də əlavə edilib.

**İsmayıl**

# Kartof, soğan və şəkər tozu bahalaşdı

Hökumət vəziyyəti nəzərə alıb maaşlara əlavələr etməlidir



**Son günlər ölkədə bəzi məhsulların qiymətində kəskin artım olduğuna dair müzakirələr aparılır. Marketlərdə şəkər tozu qıtlığı yaranıb. Həmçinin qiyməti də qalxıb. Şəkər tozunun 1 kiloqramı 1 manat 40 qəpiyə satılır.**

Bir müddət əvvələ kimi kiloqramı 50-55 qəpik olan soğan hazırda marketlərdə 1 manatdan baha bazarlanır. Həmçinin kartofun qiymətlərində də artım müşahidə edilir. "Əl yandıran" ərzaq məhsullarının bahalaşmasının qarşısının alınması üçün hansı addımlar atılmalıdır?

**İqtisadçı-alim Nazim Bəydəmirli "Şərq"ə bildirib ki, qiymətləri stabilləşdirmək üçün gərək bazar iqtisadiyyatının dəyərləri öz yerinə otursun:**

"Çox ciddi şəkildə bahalaşma davam edir. Müxtəlif bəhanələr mövcuddur. Dünya bazarında qiymətlər 3-5 faiz bahalaşırsa, bizdə 20-30 faiz yüksəlir. Hökumət büdcədən asılı şəxslərin maaşlarına ilin inflyasiya dərəcəsinə uyğun əlavələr etməlidir. Qonşu ölkələrin təcrübəsində də görürük. Azərbaycan təcrübəsində olsa da, inflyasiyanı, hökumət qiymət artımı statistikasını çox aşağı göstərir. Ötən il 6 faiz idi. İstehsalçıların 30, 50, 100 faiz bahalaşdırdığı məhsullar var. Bitki yağları, meyvələr, tərəvəzlər, ət məhsulları, hamısı bahalaşır. Ən az qiymət artımı 15-20 faizdir".

*Ekspertin sözlərinə əsasən, qanun tələb etdiyinə görə, hökumət pensiya alanların sığorta hissəsinə əlavələr gerçəkləşdirir:*

"Azərbaycanda bütün ailələr dövlət büdcəsindən maaş almırlar. Bir qisim insan özəl sektorda aşağı maaşa çalışır. Məhsulların bahalığını hiss etməmək üçün hökumət insanların daha çox pul qazanmasına şərait yaratmalıdır. Artıq pul qazanmaq monopoliya, inhisarçılıq olmayan, həmçinin iqtisadi cəhətdən azad ölkədə baş verir, bizdə heç biri yoxdur. Digər tərəfdən rüşvət, korrupsiya, əhalinin gəlirlərinin əhəmiyyətli hissəsini "yeyir". Uşaqlı ailələr repetitorlara pul xərcləyir".

**Aygün Tahir**

## Firuzə İbadova toyda onunla oynamaq istəyən gənci döyüb



**Əməkdar artist Firuzə İbadova toyda onunla oynamaq istəyən gənci döyüb.**

Müğənni bu haqda "7 canlı" proqramında danışıb. O bildirib ki, hadisə Şirvanda toyda olarkən yaşanıb:

"Bu hadisə illər əvvəl olub. Övladım yaşda oğlan idi. Sevmirəm məclisdə kişinin gəlib qadının qulağına nəsə deməsini. Gəldi qulağıma dedi ki, oynayaq. Baxdım cavab verdim ki, oğlum, get otur. Dedi yox, siz mənimlə oynayacaqsınız. Gördüm əl çəkmir, kobudcasına mikrofonu qoydum yerə. Yapışdım köynəyindən, dedim, mənimlə oynamaq istəyirsən? Qayıtdı hə... Dedim, gəl oynayaq, dartdım onu və şilləni vurdum. Yıxıldı yerə.

Özüm də məəttəl qaldım ki, bunu necə etdim? Elə bil bir aktrisa igidi vurdu yerə yıxdı. İşıqlar yandı, gördülər bir nəfər uzanıb yerə. Qayıtdı ki, oynamaq istəyirdim nə etdim? ".


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


# Rubl bundan artıq bahalaşmayacaq

Sanksiyalar götürüldükcə Rusiya da məhdudiyyətləri götürəcək

**Martın 31-də Rusiya rublunun Azərbaycan manatına qarşı rəsmi məzənnəsi daha 9,09 faiz artaraq 0,0204 manat (1 manat=49,01 rubl) təşkil edib. Başqa sözlə, bu günə 1000 rubl 20 manat 40 qəpik olub.**

"Sputnik Azərbaycan" xəbər verir ki, dünən ilə müqayisədə bu gün rubl 1 manat 70 qəpik bahalaşıb.

Martın 30-da Rusiya rublunun məzənnəsi 5,6 faiz artaraq 0,0187 manat təşkil edib (1 manat=53,47 rubl). Başqa sözlə, dünən 1000 rubl 18 manat 70 qəpik olub.

Sanksiyaların davam etməsinə rəğmən rublun bahalaşması maraq doğurur.

**Bu barədə "Şərq"ə açıqlama verən iqtisadçı Xalid Kərimli bildirib ki, bu, Rusiya hökumətinin və Mərkəzi Bankının atdığı addımlar nəticəsində baş verib:**

"Rusiya müharibə başlayandan bəri tətbiq edilən sanksiyalardan sonra pul bazarında məzənnəni tənzimləmək üçün ciddi addımlar atdı. Bu addımlar nələr idi?



Əvvəlcə məzənnənin bahalaşması ona olan tələbatı aşağı saldı. Daha sonra Rusiyada hüquqi və fiziki şəxslərin valyuta alışına 12 faizlik komissiya tətbiq olundu. Yəni bankdan valyuta almaq istəyən vətəndaş 12 faiz əlavə pul ödəməli oldu. Əlavə olaraq, fiziki şəxslər üçün valyuta alışına 10 min dollar limit tətbiq olundu. İxracatçı şirkətlərin ixracdan gələn gəlirlərinin 80 faizinin rubla çevrilmə qaydası gətirildi. Yəni xaricə satılan mallardan gələn pulun 80 faizi dərhal rubla çevrildi.

Bundan başqa qoyulan məhdudiyyətlər səbəbindən rus şirkətləri ödəniş edəndə və onlara vəsait gələndə çətinliklər yaşadılar. Bu aktivliyə mənfi təsir göstərdi. Tətbiq edilmiş sərt tənzimləmələr nəticəsində rubl sürətlə bahalaşdı.

Eyni zamanda, yaxın həftələrdə sülhün əldə ediləcəyinə dair gözləntilər və Rusiyanın ixrac gəlirlərindən birini formalaşdıran, strateji məhsul olan qazın qeyri-dost dövlətlərə rublla satılması da bu valyutanı dəstəkləyir".

**İqtisadçının sözlərinə görə, rublun bahalaşması davam etməyəcək:**

"Rublun daha çox bahalaşacağını gözləmirəm. Rublun məzənnəsi sabitləşdikcə və sanksiyalar götürüldükcə Rusiya da məhdudiyyətləri aradan qaldıracaq. Yəni sərt tənzimləmələr yumşaldılacaq deyə daha çox bahalaşma olmayacaq".

**Sənan İsmayıl**

## Flora Kərimova zəhərlənib



**Xalq artisti Flora Kərimova zəhərlənib.**

Bu barədə Kulis.az-a Xalq artistinin köməkçisi məlumat verib.

Onun sözlərinə görə, Flora Kərimova dünən balıq yeyib və ondan sonra gün ərzində halı pisləşib:

"Hazırda Flora Kərimova yataqdadır və müalicə alır. Vəziyyəti yaxşı deyil".

## Elgiz oğurluqda ittiham etdiyi qonşusundan üzr istədi



**Aparıcı Elgiz Əkbər oğurluqda ittiham etdiyi qonşusundan üzr istəyib.**

Aparıcı bağında olan oğurluğa görə qonşusunu polisə verib. O bildirib ki, araşdırmada oğrunun başqası olduğu ortaya çıxıb:

"Üzürxahlıq etmək istəyirəm. Bağımdan oğurluq olmuşdu. Oğru balaca bir yerdən girib, pəncərəni balaca açıq saxlamışdı. Qonşum boynuna alıb ki, oğruyam. Həmin qonşu ondan əvvəl də həyətimdən oğurluq etmişdi. Hovuzun suyunu açmaq üçün krant almışdım. Zülmlə sifariş etmişəm, tapıb götiriblər. Keçib həyətimə, onu açıb götürüb və dəmirsatanlara kiloqramla satıb. Necə əsəbiləşdim, amma keçdim. Öyrəndim ki, qonşuların toyuqlarını, soyuducudan yeməklərini aparıb.

Evim də soyulanda polis soruşdu kimdən şübhələnirsən? Dedim, həmin qonşudan. Təsəvvür edin pəncərədən girib, amma çıxa bilməyib. Divarı söküb, mənə nə qədər ziyan vurub. Polis gəldi, axtardı, amma nəticədə başqa adam çıxdı. Mənim evimdən ələ 15 bağa girib. Hərə öz malını götürdü".

# Yeniyetmələrin intiharı valideyn qayğılarının nəticəsidir

"Çünki sözügedən dönəmdə uşaqlar özlərindən çox ailələrinin duyğularını yaşayır"

**Məktəblilər arasında intihar hadisəsi ilə bağlı məlumatlar səngimir. Ötən gün Bakıda 15 yaşlı qız imtahana görə intihar edib.**





Yeni Yasamal qəsəbəsində yaşayan 15 yaşlı Z.C qonşuluqdakı binanın doqquzuncu mərtəbəsinə çıxaraq blokun pəncərəsindən özünü yerə ataraq keçinib. İlkin məlumata görə, Z.C qarşıda gözlənilən imtahandan az bal yığacağına, zəif nəticə göstərəcəyini ehtimal edərək stress keçirib. Bundan öncə də sınaq imtahanlarında istədiyi qədər bal toplaya bilməyən şagird imtahandan da keçə bilməyəcəyini düşünüb. Onun buna görə psixoloji gərginlik altında intihar etdiyi bildirilir.

Şagirdlərin imtahan sindromu öyrəncəli hala çevrilib. Şagirdin canına qəsd etməsi sosial şəbəkələrdə ciddi narahatlığa müzakirə edilir. Maraqlıdır, şagirdləri stresdən xilas etmək üçün nə etmək zəruridir?

**Məktəbli şagirdin özünəqəsdilə bağlı "Şərq"lə fikirlərini bölüşən psixoloq Əfsanə Rüstəmova bildirib ki, "intihar fəsli" deyə bir anlayış düşünməliyik:**

"Fəsil - dönəm mənasındadır. Yeniyetməlik yaş dönəmi və qayğı xüsusiyyətlərinə aid məlumatlanmaq üçün övladlarımızın intihar etməsini gözləməməliyik. Belə zamanlarda hər kəsin ağlının bir ucunda qırmızı işıq yanmalıdır. Sloqanı isə "bu dönəmdə fərqindəliyini artır!" olsun. Amma "intihar fəsilləri" hər kəs üçün dəyişir. Ona görə hər kəs üçün qırmızı işığı həmişə aktual qalmalıdır.

Yeniyetmələrin intiharı valideyn qayğılarının nəticəsidir. Çünki sözügedən dönəmdə uşaqlar özlərindən çox ailələrinin duyğularını yaşayır".

**Ə.Rüstəmova bildirib ki, tərbiyədə yanlışlığa yol verməK uşağın həyatının tamamını, valideynlərin isə gələcəyini əlindən alır:**

"Məni camaatın içində biabır eləmə!", "filankəsin uşağı " yəqin bu kontekstli cümlələr hamınıza tanışdır. Mühakimə etdiyimizin fərqinə varmadan qəlibləşmiş yanlış davranışları sərgiləyərək öz həyatımızın bir parçasını əlimizlə uçurumdan atdığımızı başa düşmürük.

Çünki "onun yaxşılığı üçün", "gələcəkdə daha yaxşı həyatı olsun deyə" belə davrandığımızı fikirləşirik. Ta o zamana qədər ki, onun həyatının bir gələcəyi olmayacağını anlayırıq - onları itiririk. Biz nüfuzumuz, eqomuza görə övladlarımızı qurban verdiyimizdən xəbərsiz yetişdirmə şəkli seçirik".

**Psixoloq valideynlərə səslənib:**

"Keçmişdə olan mənfi davranışlarımızı dəyişə bilmədiyimizi anlamalıyıq. Bütün zaman kəsimi bizim əlimizdədir. Səhvlərimizi dərk edib, onları düzəltmək üçün hadisənin başımıza gəlməyini gözləməyək.

Əziz valideynlər, bizlər də həyatın sınaqlarından zədə almış, imtahanlarından kəsilmişik. Həmin anlarda hiss etdiyimiz məyusluq hissini övladlarımıza yaşatmamaq üçün sadəcə öz içimizdəki qırıqlara baxmağımız kifayətdir. Həyat imtahanlarla doludur. Çalışın bu imtahan övladlarınızın sonuncu imtahanı olmasın".

**Aygün Tahir**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun I müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı. Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611 SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944 VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 856



# Dünyada 5,2 milyon uşaq "Covid Yetimi"dir

## Onlar hazırda yoxsulluq və ruh sağlamlığı problemləri ilə qarşı-qarşıyadır

**Koronavirusa görə hər dörd ölümdə bir uşaq anasız, ya da atasız qaldı. Bu say 5,2 milyona çatıb. Covid səbəbiylə yetim qalmış uşaqlar üçün "Covid Yetimi" deyimi də ortaya çıxıb. Mütəxəssislərə görə, bu uşaqlar hazırda yoxsulluq və ruh sağlamlığı problemləri ilə qarşı-qarşıyadır...**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Kaliforniyanın Los Angeles Universitetinin (UCLA) Uşaq Reanimasiya mütəxəssisi Prof. Dr. Yonca Bulud, pandemiyanın uşaqlara çox ciddi təsiri olduğunu vurğulayaraq belə deyib:

"Covid, xüsusilə ABŞ-dakı ictimai yaraları daha çox gözlər önünə sərdi. Zatən doğru, dürüst var olmayan ictimai sistem çökdü. 200 mindən çox uşaq ən azı bir valideynlərini itirdi. Hər dörd yetkin ölümdə bir uşaq anasız, ya da atasız qaldı. Təəssüf ki, Covid səbəbiylə yetim qalmış uşaqlar üçün istifadə edilən "Covid Yetimi" deyimi də ortaya çıxdı. Dünyada "Covid Yetim"lərin sayı 5,2 milyon nəfərdir. Hələ bir çox ölkədə insanların test vermədiyini də nəzərə alsaq, bu rəqəmlər daha böyükdür".

**Turan**

# Birinci oldu, medal aldı

## "Mia" gözəlliyi ilə hamını heyran edir



**Bu il Vanda 6-cı Van Şopinq Festivalı (Shopping Fest) keçirilib. "Van Pişiyi Gözəllik Yarışması"nın qalibi olan "Mia" böyük marağa səbəb olub.**

"Şərq" "HaberTürk"ə istinadən xəbər verir ki, Van Yüzüncü İl Universiteti Van Pişik Araşdırma və Tətbiq Mərkəzində qalan "Mia" hər gün onlarla insan tərəfindən ziyarət edilir.

Ziyarətçilər "Mia"nın boynundakı medal ilə birlikdə şəkillərini çəkirlər. Tədbirin təşkilatçılarından Abdullah Kaya öz təəssüratlarını bildirib.

"Van Pişiyi Araşdırma və Tətbiq Mərkəzi gözəl pişiklər baxımından həqiqətən unikal bir yerdir. Bizim mərkəzimizdə əslində birinci ola biləcək bir çox pişiyimiz var. Bizə məxsus olan iki pişiyimizdən biri qalib, biri isə ikinci oldu. Açığı, bu nəticəni gözləyirdik. Çünki biz bütün pişiklərimizin gözəlliklərinə güvənirik. "Mia" gözəlliyi, zərifliyi və mehribanlığı ilə həmişə diqqət mərkəzində olub. Van pişiklərimizin hamısı gözəldir. Amma müsabiqə olduğu üçün birini seçmək lazım idi".

**Cəmilə**

# Loboda Ukrayna ordusu üçün 1,5 milyon göndərdi



**Ukraynanın Əməkdar artisti Svetlana Loboda ölkəsinin ordusu üçün yardım göndərib.**

**Axşam.az xəbər verir ki, bu barədə Borispol meri Vladimir Borisenko feysbukdakı canlı çıxışı zamanı məlumat verib.**

**O bildirib ki, müğənni ordu üçün hərbi avtomobil alıb. Sənətçi zirehli gödəkçə və turniketlərin alınması üçün isə 1,5 milyon qriven (təxminən 86 min 400 manat) pul göndərib.**

# Cem Yılmaz aliment davasını qazandı



**Türkiyəli şoumen Cem Yılmazın keçmiş həyat yoldaşı Ahu Yağtuya ödədiyi alimentin azaldılmasıyla bağlı açılan məhkəmə sona çatıb.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, aktyor 10 min dollarlıq alimentin 40 min lirə olmasını tələb etmişdi. Hakim isə C.Yılmazım 70 min lirə ödəməsinə qərar verib.**

***Qeyd edək ki, 2013-cü ildə boşanan cütlüyün bu evlilikdən bir oğlu var.***

# Mobil telefon şüası beyində şiş yaradır?



**Mobil telefondan istifadə beyin şişi riskini artırmır.**

**Məqalədə bildirlib ki, Oksford Universitetinin alimləri və onların digər institutlardakı həmkarları genişmiqyaslı araşdırma aparıblar. 2001-ci ildə 776 000 nəfər mobil telefondan istifadə ilə bağlı anket doldurub. 10 il sonra, 2011-ci ildə onların yarısı yenidən araşdırmada iştirak edib. Bu məlumatlara alimlər onların xəstəlikləri ilə bağlı Səhiyyə Nazirliyindən əldə etdikləri məlumatları da əlavə ediblər.**

**Məlum olub ki, tədqiqat dövründə 3268 qadında və ya respondentlərin yalnız 0,42%-də beyin şişləri aşkar edilib. Eyni zamanda, şişlərin telefondan istifadə edən və etməyənlərdə də baş vermə ehtimalı eynilik təşkil edib. Bundan əlavə, insanların çoxu telefonu sağ əlində saxlasa da, sol və sağ tərəfli beyin şişinin inkişafı riski bərabər olub.**

**Bütün bunlardan alimlər belə nəticəyə gəliblər ki, normal istifadədə cib telefonları beyin şişinin əmələ gəlməsi riskini yaratmır.**



# ABŞ alimləri araşdırıb

## Həftədə 1 avakado infarkt riskini azaldır





**Amerikada aparılmış tədqiqat həftədə 1 avakado yeyilərsə, infarkt təhlükəsinin xeyli azaldığını təsdiq edib. Tədqiqat zamanı 110 nəfər üzərində müşahidə aparılıb. Məlum olub ki, həftədə bir avakado yeyən insanlarda ürək-damar xəstəlikləri təhlükəsi yeməyənlərə nisbətdə 21 dəfə azdır.**

Bundan əlavə, digər bir araşdırma isə həftədə 2 pors yağlı meyvə yeyənlər arasında da infarkt riskinin aşağı olduğu müəyyənləşib. NTV.com.tr xəbər verir ki, "Journal of the American Heart Association"da yer alan məlumatda meyvələrdən xüsusilə avakadonun xeyirli cəhətlərinə diqqət çəkilir. Qeyd edilir ki, avakado kərə yağı, pendir və ya ət əvəzində yeyildikdə ürək-damar xəstəliklərinə tutulma təhlükəsi azalır. 68 mindən çox qadın, 41 mindən artıq kişi üzərində aparılmış araşdırma nəticəsində gəlinən qənaət bundan ibarətdir ki, həftədə ən azı 2 pors avakado yemək məsləhətdir. Bir porsiyanın miqdarı isə 80 qram ağırlığında yarım avakadodur. ABŞ Ürək Xəstəlikləri Dərnəyinin Epidemiologiya və Önləmə Konseyinin başqanı Cherly Anderson bildirib ki, insan orqanizmi fərdi xarakter daşıdığından sağlam qidalanmada hər hansı qida, ərzaq birmənalı müsbət sayıla bilməz: "Bütün qidaların müsbət cəhətləri olduğu kimi, mənfi cəhətləri də vardır. Vacib olan nədən nə qədər yeyilməli olduğunu bilməkdir. Avakado da bir sıra üstünlüklərə malikdir. Pasiyentlərə biz daha çox Aralıq dənizi diyetasını məsləhət görürük".

ÜST-nin məlumatına görə, hər il dünyada 18 milyon insan kardioloji xəstəliklərdən dünyasını dəyişir. Təkcə ABŞ-da ürək-damar xəstəliklərindən hər 36 saniyədə bir nəfər vəfat edir.

**Məlahət**



# Hər şey 15 dəqiqə içində oldu

## Qarət şokundan özünə gələ bilmir

**Pandemiyanın karantin gerçəyi bir çox insanı təbiətlə baş-başa qalmağa sövq etdi.**



Karvan-avtomobillərə tələbat da beləcə artdı. Kimisi bacarığına güvənib avtomobilini karvana dönüşdürdü, kimisə də hazır karvan-avtomobil aldı və ya kirayələdi. Bu səbəbdən son 2 ildə karvan-avtomobillərə böyük maraq yaranıb. Karvan-avtomobillə Türkiyəni gəzən Kamil Yılmaz da pandemiyanın əlindən təbiətə sığınanlardan biridir. Amma Kamil bu günlərdə gözlənilməz hadisə ilə qarşılaşıb. Onun karvanı qarət edilib. Bundan dərs alan Kamil Yılmaz indi karvan sahiblərinə "nəbadə hardasa nəzarətsiz buraxıb gedəsiniz, qayıtdıqda "evinizin" içini boşaldılmış görə bilərsiniz" deyə məsləhət verir. "Şərq" "Milliyet.com.tr"yə istinadən xəbər verir ki, Kamil Yılmaz son zamanlar karvan qarətçilərinin çoxaldığını deyib. K.Yılmaz uzun müddət karvanıyla Türkiyəni dolaşıb, sonra isə İrana səfər etmək qərarına gəlib. İran ərazisinə keçməzdən öncə Batmanda qalıb. Oğru da onu burada yaxalayıb. Kamil "karvanın içindəkiləri əşyaların oğurlandığını biləndə sanki başımdan aşağı qaynar su tökdülər. Karvanımı şəhər mərkəzindəki avtomobil parkında saxlamışdım. Amma avto-parkın təhlükəsizlik kamerası yox imiş. Sadəcə, 15 dəqiqəlik avtomobilimdən ayrılmışdım. Qayıtdıqda, karvanın qarət edildiyini gördüm. Kompüterim, fotoaparat, dron pultu və enerjiyükləyici, İP telefonum, daha bir fotoaparat, hamısı oğurlanmışdı. Donub qaldım. Polisə getdim, məlum oldu ki, kamera qeydləri yoxdur, çünki avto-parkda təhlükəsizlik kameraları olmayıb. Barmaq izləri götürdülər. Bir gün sonra başqa bir dostumun karvanının da qarət edildiyini bildim", deyib. K.Yılmaz hazırda İran ərazisində narahatlıqla dolaşdığını söyləyib: "Təhlükəsizlik kamerası olan yerlərdə karvanı saxlayırıq. Ya da yanından ayrılmamağa çalışırıq. Güvəndiyimiz biri varsa ona əmanət edirik. Qarət şokundan hələ özümə gələ bilmirəm. Məsləhətim budur ki, avto-karvanı harda gəldi saxlamayın. Qiymətli, vacib əşyaları karvanın içində qoyub getməyin. Yanınızda, yol çantasının içində daşıyın. Ağır olsa da, narahat olsanız da, hər halda oğurlanmaqdan yaxşıdır". "Başına gələn başmaqçı" olar məsəlini xatırladan K.Yılmaz "oğrular karvanlara əsasən yan pəncərələrdən daxil olur. Ya pəncərələri itələyib açır, ya da sındırırlar. Karvana siqnalizasiya da quraşdırmaq olar. Bu sistem qapı açıldıqda, karvana kənardan müdaxilə edildikdə və ya yerindən tərpədildikdə həyəcan siqnalı çalır", deyib.

**Məlahət**

# Təxliyə qərarı sosial şəbəkəni çalxaladı

## Eşitmə qüsuru olan yeniyetməni döyüb, görüntülərini yaymışdı



**Türkiyənin Kocaeli bölgəsində özü kimi eşitmə qüsurlu olan Engin E.-ni döyərək görüntüləri sosial şəbəkədə paylaşan Fırat Kaya və dostları sərbəst buraxılıb. Təxliyə qərarı sosial mediada kəskin reaksiyalara səbəb olub. Engin E.-nin vəkili Didem Özhan qərara etiraz edəcəklərini bildirib.**

Hadisə 22 mart 2021-ci ildə İzmitdə bir üzüm bağında baş verib. Aydından iş tapmaq üçün gələn Engin E. həm də eşitmə qabiliyyəti olmayan Fırat Kaya tərəfindən döyülüb. Hadisədən sonra Engin E. polisə gedərək şikayət edib. Polis hadisədə əli olduğu müəyyən edilən Fırat Kaya və Ersin Kam, Emrah Mutlu, Salih Öztopçuoğlu və Murat Akdemiri saxlayıb. Hamısı kar olan 5 nəfər tutularaq həbsxanaya göndərib.

Fırat Kaya 10 il, Ersin Kam, Emrah Mutlu, Salih Öztopçuoğlu və Murat Akdemirin hər biri 7 il 11 ay həbs cəzasına məhkum edilib. Lakin təqsirləndirilən şəxslər məhkəmə zamanı həbsdə qaldıqları müddət nəzərə alınaraq azadlığa buraxılıblar. Sosial şəbəkələrdə bir çox insan bu hadisəyə sərt reaksiya verib. Engin E.-nin vəkili Didem Özhan isə qərara etiraz edəcəklərini bildirib.

**Çimnaz**

# İdman velosipedi corab toxuyur

## Bir cüt corab hazırlamaq təxminən 10 dəqiqə çəkir



**Yaponiyanın Nara prefekturasında yerləşən "Souki Socks" adlı kiçik corab fabriki idman velosipedində pedal çevirməklə insana öz corablarını toxumağa imkan verən cihaz hazırlayıb.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, velosiped satışa çıxarılandan bəri turistlərin böyük marağına səbəb olub. Pedalı çevirməzdən əvvəl ziyarətçi corabların ölçüsünü və sapların rəngini seçir. Zavod işçisi ipləri maşına bağlayır, bundan sonra pedalı çevirmək olar.

Bir cüt corab hazırlamaq təxminən 10 dəqiqə çəkir. Ziyarətçi pedal çevirməyi bitirdikdən sonra fabrik işçiləri ayaq barmağını tikir və corabları ütüləyir.

# Burak Dəniz onunla sevgilidir



**Türkiyəli aktyor Burak Dəniz həmkarı Dəniz İşinlə sevgilidir.**

Axşam.az xəbər verir ki, cütlük Etilerdə məkanlardan birində görüntülənib. İkili 5 saat birlikdə vaxt keçirib. Onlar paparatsilərin obyektivinə tuş gəlib.

*Qeyd ki, Burak daha əvvəl model Didem Soydanla sevgili olub.*